Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 256 (7983) ÇƏRŞƏNBƏ, 14 noyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik






## **Prezident İlham ƏLİYEV:** "...bu islahatlar nəticəsində kənd təsərrüfatının uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcək"

Müstəqilliyimizin bərpasından sonra ilk növbədə iqtisadiyyatımızın ən böyük sahələrindən biri olan kənd təsərrüfatında islahatların aparılması məlum faktdır. Onu da vurğulamaq lazımdır ki, MDB məkanında aqrar islahatlar ilk dəfə ölkəmizdə həyata keçirilib, baxmayaraq ki, kənd təsərrüfatı ölkənin ərzaq təhlükəsizliyinin qarantı olduğu üçün bu, çox ciddi risk sayılırdı. Bununla belə ulu öndər Heydər Əliyev aqrar islahatların aparılmasında, bütün işlərdə olduğu kimi, qətiyyətli idi.

İslahatların ilk illərində kənd təsərrüfatı məhsullarının istehsalında göstərilən qədər artım olmadı. Səbəb pay torpağı əldə edən kəndlinin onu becərməsi üçün əlində vəsaitin olmaması idi. Həmçinin həmin dövrdə mövcud kənd təsərrüfatı texnikası köhnəldiyi üçün iqtisadi cəhətdən səmərəsiz idi. Üstəlik, o illər əhalinin alıcılıq qabiliyyətinin aşağı olması kənd təsərrüfatını qeyri-rentabelli sahəyə çevirmişdi. Bu üzdən də kəndlinin əldə etdiyi pay torpağını əkib-becərməyə həvəsi qalmamışdı.

"Əsrin müqaviləsi"ndən əldə edilən gəlirdən iqtisadiyyatın müxtəlif sahələrinin, o cümlədən aqrar sektorun inkişafında istifadə edilməsi ilə kənd təsərrüfatında yeni dövr başladı. Prezident İlham Əliyev aqrar sektorda islahatların daha da dərinləşdirilməsi, ona daha çox dövlət dəstəyinin göstərilməsi istiqamətində ardıcıl və səmərəli tədbirlər həyata keçirdi. Ölkə rəhbərinin təşəbbüsü ilə kənd təsərrüfatı torpaq vergisindən savayı bütün növ vergilərdən azad edildi, fermerlərə istifadə etdikləri yanacaq və sürtkü yağlarına görə əlavə ödənişlər edildi, istehsalçılara istifadə etdikləri toxuma, gübrəyə, damazlıq heyvanlara və texnikaya görə əlavə güzəştlər olundu.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bir daha aqrar sektorda aparılan islahatların davam etdiriləcəyini bildirərək demişdir: "Kənd təsərrüfatı sahəsində aparılan islahatlar daha da böyük nəticələrə çatmağa imkan verəcəkdir. Doqquz ayda 5700 kənd təsərrüfatı texnikası alınıbdır. Texnika ilə təminat böyük dərəcədə yaxşılaşıb... Hesab edirəm ki, bu islahatlar nəticəsində kənd təsərrüfatının uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcək, düşünülmüş, sistemli qaydada, torpaqların münbitliyini nəzərə alaraq, əkin sahələrinin səmərəliliyini təmin edərək və ilk növbədə, məhsuldarlığı artıraraq, biz mövcud olan torpaq fondumuzdan istifadə edərək istehsalı böyük dərəcədə artıra bilərik". Bəli, bu gün ölkəmizin kənd təsərrüfatı özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Bunu biz həm daxili istehlak bazarında, həm də ixracatda kənd təsərrüfatı məhsullarının çəkisinin artmasında görürük. Həmçinin cari ilin 9 ayının göstəricilərinə görə, kənd təsərrüfatında məhsul istehsalının 4,3 faiz artması da bunun göstəricisidir.

*Ardı 5-ci səh.*

# İqtisadi inkişafın davamlılığı və dinamikliyi 2019-cu ildə də təmin ediləcək

## Baş nazir Novruz Məmmədovun iştirakı ilə Milli Məclisdə gələn ilin dövlət büdcəsinin müzakirələri başlanıb

Noyabrın 13-də Milli Məclisin növbəti plenar iclasında "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" qanun layihəsi və büdcə zərfinə daxil olan digər qanun layihələrinin müzakirəsinə başlanılıb. Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov və hökumətin üzvləri iclasda iştirak ediblər.

İclası açan Milli Məclisin Sədri Oqtay Əsədov deyib ki, Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu inkişaf strategiyası ölkəmizdə təşəkkül tapmış makroiqtisadi sabitliyi və maliyyə dayanıqlılığını daha da möhkəmləndirməyə, iqtisadi inkişaf və təhlükəsizlik sahəsində dövlət siyasətinin prioritetlərini və məqsədlərini həyata keçirməyə imkan yaradıb. 2018-ci ilin 9 ayında bütün makroiqtisadi göstəricilər üzrə artım müşahidə edilib. Bu dövr ərzində valyuta ehtiyatlarımız 3 milyard dollar artaraq 45 milyard dollara çatıb. Əhalinin gəlirlərinin artımı inflyasiyanı üstələyib ki, bu da sosial vəziyyətin yaxşılaşmasının əsas göstəricilərindən biridir. Milli Məclisin Sədri bildirib ki, bu gün müzakirə edilən büdcə zərfi sənədləri ölkə həyatında müşahidə olunan müsbət dinamik dəyişiklikləri dolğun əks etdirir. 2019-cu ilin dövlət büdcəsi layihəsinin ən mühüm cəhətlərindən biri vəsaitlərin məqsədli proqramlar əsasında xərclənməsidir. Büdcə xərclərinin 42 faizi, yəni, 10 milyard manatdan çoxu bu proqramlar sayəsində xərclənəcək. Bu isə 2018-ci illə müqayisədə 2 milyard 77 milyon manat çoxdur.

"2019-cu ilin dövlət büdcəsi sosialyönümlülüyünü qoruyacaq. Büdcə xərclərinin 32 faizini sosialyönümlü xərclər təşkil edir. Diqqət çəkən məqamlardan biri də əhalinin sağlamlığının qorunması üçün ayrılan vəsaitlə bağlıdır. 2019-cu ildə səhiyyə sahəsinə ayrılan xərclər bu ilin müvafiq xərclərindən 309 milyon manat, yəni, 32 faiz çoxdur. Bundan əlavə, icbari tibbi sığorta üçün 223 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Bütün bunlar onu göstərir ki, əhalinin sağlamlığının qorunması dövlətin prioritetlərindən biridir. Ölkə üçün strateji sahə hesab olunan təhsil xərcləri 2018-ci ilə nisbətən 11 faiz artacaq və 2 milyard 275 milyon manata çatacaq", - deyə Oqtay Əsədov qeyd edib.

Parlamentin Sədri söyləyib ki, ölkə iqtisadiyyatının müsbət dinamikasının qorunub saxlanılmasında və artırılmasında Nazirlər Kabinetinin mühüm rolu var. Dövlət büdcə zərfinin sənədləri mükəmməl tərtib olunub. Büdcə sənədlərindən görünür ki, iqtisadi artım 2019-cu ildə də davam edəcək. Belə ki, əsas iqtisadi göstərici olan ümumi daxili məhsulun gələnilki artımı 3,6 faiz səviyyəsində proqnozlaşdırılır. İqtisadiyyata investisiya qoyuluşunun cari ilə nisbətdə 2,2 faiz çox olması da iqtisadiyyatımızın inkişafından xəbər verir.

*Ardı 3-cü səh.*

# Azərbaycan-Slovakiya münasibətləri möhkəmlənir





Noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Baş naziri Peter Pelleqrini ilə təkbətək görüşü olub.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Baş nazir Peter Pelleqrinini qarşıladı.

Azərbaycan Prezidenti və Slovakiyanın Baş naziri birgə foto çəkdirdilər.

Dövlətimizin başçısı Peter Pelleqrinini Slovakiyanın Baş naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi. Prezident İlham Əliyev Peter Pelleqrininin Baş nazir kimi ilk dəfə Azərbaycana səfər etməsindən və bu yüksək vəzifəyə təyin olunduğu az vaxtdan sonra ölkəmizə gəlişindən məmnunluğunu bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, Peter Pelleqrininin Azərbaycana səfəri ikitərəfli münasibətlərimizin inkişafı üçün əlverişli imkan yaradır. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan-Slovakiya münasibətləri ölkəmizin Avropa İttifaqı ilə əməkdaşlığının inkişafı baxımından da önəmlidir. Dövlətimizin başçısı bu ilin iyulunda Azərbaycan ilə Avropa İttifaqı arasında Brüsseldə paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədini Avropa İttifaqı tərəfindən Azərbaycanla əlaqələrə verilən önəmin göstəricisi kimi dəyərləndirdi.



Slovakiya Respublikasının Baş naziri Peter Pelleqrini xoş sözlərə və göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlıq etdi. O, Baş nazir kimi Azərbaycana birinci dəfə səfər etməsindən məmnunluğunu bildirərək bundan əvvəl parlament spikeri vəzifəsində çalışarkən Avropa Oyunları zamanı ölkəmizə gəldiyini vurğuladı. O, bu mötəbər beynəlxalq tədbirin böyük uğurla təşkil olunduğunu dedi. Qonaq ölkələrimiz arasında ikitərəfli münasibətlərə toxunaraq bu səfəri zamanı Bakıda keçirilən Azərbaycan-Slovakiya biznes forumunun önəmini qeyd etdi və bunun iqtisadi sahədə əməkdaşlığımızın genişlənməsi işinə öz töhfəsini verəcəyini vurğuladı.

# Azərbaycan Prezidenti İlham Əliyevin və Slovakiyanın Baş naziri Peter Pelleqrininin geniş tərkibdə görüşü

Noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Baş naziri Peter Pelleqrini ilə təkbətək görüşü başa çatdıqdan sonra danışıqlar geniş tərkibdə davam etdirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Azərbaycan Prezidenti **İlham ƏLİYEV** dedi:

- Hörmətli cənab Baş nazir, hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz. İndicə cənab Baş nazirlə ölkələrimiz arasında olan münasibətlər, gələcək planlar barədə çox önəmli və maraqlı söhbətimiz oldu. Bizi ziyarət etdiyiniz üçün Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Görüşdə dediyim kimi, münasibətlərimizin tarixində bu, Slovakiyanın Baş nazirinin ölkəmizə ilk səfəridir. Digər vacib fakt ondan ibarətdir ki, Baş nazir təyin olunmasından qısa müddət sonra Azərbaycanı ziyarət edir. Biz bunu hörmət, tərəfdaşlıq və Azərbaycana maraq əlaməti hesab edirik. Biz əməkdaşlığımızı inkişaf etdirmək istəyirik. Biz tərəfdaşlığın genişləndirilməsində böyük potensialı görürük və əminəm ki, səfər zamanı müzakirə olunan məsələlər gələcək tərəfdaşlıq üçün möhkəm zəmin yaradacaqdır.

İkitərəfli münasibətlərlə bağlı çoxlu işlər görülməlidir. Biznes dairələrinin bir araya toplaşması və gələcək planları müzakirə etməsi də bizi məmnun edir. Əlbəttə ki, biz siyasi, iqtisadi, nəqliyyat və digər sahələrdə əməkdaşlığımızı davam etdirəcəyik. Biz daşımalar sahəsində potensialı müzakirə etdik.

Əməkdaşlığımızın vacib hissəsi, həmçinin Azərbaycan-Avropa İttifaqı münasibətləridir. Bu münasibətlər yaxşı formadadır. Bu il biz "Tərəfdaşlıq prioritetləri" sənədini parafladıq və Azərbaycan ilə Avropa İttifaqı arasında bütün sahələri, o cümlədən siyasi, iqtisadi, sosial, nəqliyyat, enerji sahələrini əhatə edəcək yeni razılaşma üzrə danışıqların fəal mərhələsindəyik. Azərbaycan enerji təhlükəsizliyi sahəsində Avropa İttifaqı tərəfindən çox mühüm tərəfdaş hesab olunur. Bizim icra etdiyimiz layihələrin qitədə böyük miqyası var. Buna görə, cənab Baş nazir, əminəm ki, Sizin səfəriniz ölkələrimiz arasında münasibətlərin sürətli inkişafı üçün çox yaxşı imkanlar yaradacaq. Mən Sizə uğurlu səfər arzu edirəm.





Slovakiyanın Baş naziri **Peter PELLEQRİNİ** dedi:

- Çox sağ olun, Zati-aliləri cənab Prezident. Sizinlə bu gözəl məkanda şəxsən görüşməkdən məmnunam. Bəli, Siz tamamilə düz qeyd etdiniz, biz istərdik ki, səfərimiz münasibətlərimizin daha dinamik şəkildə inkişafına xidmət etsin.

Slovakiya Respublikasının Baş naziri Peter Pelleqrini nümayəndə heyəti üzvlərinin Bakıda öz həmkarları ilə hökumətlərarası komissiyanın yaradılması, iqtisadi sahədə müqavilə-hüquq bazasının genişləndirilməsi ilə bağlı səmərəli danışıqlar apardıqlarını bildirdi.

Görüşdə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, investisiya, təhsil, turizm sahələrində əlaqələrin perspektivləri müzakirə olundu. Söhbət zamanı Slovakiyanın Azərbaycanda səfirliyinin açılmasının ikitərəfli münasibətlərin inkişafı baxımından əhəmiyyəti qeyd olundu.

* * *

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev və Slovakiyanın Baş naziri Peter Pelleqrini işçi nahar etdilər.

## “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

“Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 890; 2016, № 3, maddə 428, № 11, maddə 1768, № 12, maddə 2016; 2017, № 5, maddə 739) 27.1-ci və 27.4.1-ci maddələrində “müvafiq icra hakimiyyəti orqanı” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 oktyabr 2018-ci il*

---

## “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1247-VQD nömrəli Qanununun tətbiqi və “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 714-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 28 avqust tarixli 955 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1247-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 714-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 28 avqust tarixli 955 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 898; 2014, № 5, maddə 477; 2016, № 3, maddə 461, № 8, maddə 1384) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4.1-ci bənddə “və 13.2-ci” sözləri “, 13.2-ci, 27.1-ci və 27.4.1-ci” sözləri ilə əvəz edilsin;

3.2. 4.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

“4.4. həmin qanunun 27.1-ci və 27.4.1-ci maddələrində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini “Azərbaycan Akkreditasiya Mərkəzi” publik hüquqi şəxs həyata keçirir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2018-ci il*

---

## “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq, “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 963-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 890, 2016, № 3, maddə 428, № 11, maddə 1768, № 12, maddə 2016; 2017, № 5, maddə 739) 18.1-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Birinci, ikinci və üçüncü cümlələrdə “orta və kiçik” sözləri “orta, kiçik və mikro” sözləri ilə əvəz edilsin.

2. Üçüncü cümlədə “müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir” sözləri “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilir” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 oktyabr 2018-ci il*

---

## “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1269-VQD nömrəli Qanununun tətbiqi və “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 714-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 28 avqust tarixli 955 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1269-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 714-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 28 avqust tarixli 955 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 898; 2014, № 5, maddə 477; 2016, № 3, maddə 461, № 8, maddə 1384) 4.2-ci bəndindən “maddələrində, 18.1-ci maddəsinin üçüncü cümləsində” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2018-ci il*

---

## “Kiçik sahibkarlığa dövlət köməyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq, “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 963-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Kiçik sahibkarlığa dövlət köməyi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 469; 2001, № 12, maddə 736; 2002, № 12, maddə 709; 2003, № 12, (I kitab), maddə 672; 2007, № 10, maddə 938; 2015, № 11, maddə 1264) 3-cü maddəsinin mətni aşağıdakı redaksiyada verilsin:

“Bu qanunun məqsədləri üçün kiçik sahibkarlıq subyektləri dedikdə “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təsdiq edilən meyarlar əsasında müəyyən olunmuş kiçik və mikro sahibkarlıq subyektləri başa düşülür.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 oktyabr 2018-ci il*

---

## “Kiçik sahibkarlığa dövlət köməyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1268-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Kiçik sahibkarlığa dövlət köməyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1268-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Kiçik sahibkarlığa dövlət köməyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Kiçik sahibkarlığa dövlət köməyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2018-ci il*

---

## Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyaya dəyişikliklərə dair protokolların təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2016-cı il oktyabrın 6-da Monreal şəhərində imzalanmış “Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyanın 50 a) maddəsində dəyişikliyə dair Protokol” və “Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyanın 56-cı maddəsində dəyişikliyə dair Protokol” təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 oktyabr 2018-ci il*

---

## “Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 dekabr tarixli 1852 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 dekabr tarixli 1852 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1111; 2007, № 11, maddə 1133; 2009, № 2, maddə 74; 2010, № 2, maddə 80, № 6, maddə 501; 2012, № 2, maddə 135; 2014, № 2, maddə 112, № 5, maddə 477, № 9, maddə 1027; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2017, № 8, maddə 1521) 1-ci hissəsi ilə yaradılmış Dövlət Komissiyasının tərkibi aşağıdakı redaksiyada verilsin:

**“Dövlət Komissiyasının sədri**

Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri

**Dövlət Komissiyasının üzvləri**

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini
Azərbaycan Respublikası maliyyə nazirinin müavini
Azərbaycan Respublikası energetika nazirinin müavini
Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini
Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini
Azərbaycan Respublikası təhsil nazirinin müavini
Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini
Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini
Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini
Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti
Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini
“Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti
“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin vitse-prezidenti
Azərbaycan Respublikası Ticarət və Sənaye Palatasının prezidenti
Azərbaycan Respublikasının Yaponiyada fövqəladə və səlahiyyətli səfiri.”.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Yaponiya tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 noyabr 2018-ci il*

---

## Azərbaycan Milli Elmlər Akademiyası Geologiya və Geofizika İnstitutunun əməkdaşlarının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda geologiya və geofizika elminin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**“Şöhrət” ordeni ilə**

Əliyev Adil Abas Əli oğlu

**“Tərəqqi” medalı ilə**

Abdullayeva Rasimə Rəşid qızı
Biryukova Larisa Nikolayevna
Rzayev Azay Qurbətoviç
Vəliyev Zəki Abdulla oğlu
Vəliyeva Vəsilə Aslan qızı
Zöhrabova Vəcihə Ramazan qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 noyabr 2018-ci il*

---

## Azərbaycan Milli Elmlər Akademiyası Geologiya və Geofizika İnstitutunun əməkdaşlarına fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda geologiya və geofizika elminin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**“Əməkdar elm xadimi”**

Quliyev Hətəm Hidayət oğlu

**“Əməkdar mühəndis”**

Babazadə Oqtay Baba oğlu
İsrafilov Yusif Həbib oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 noyabr 2018-ci il*

---

## Azərbaycan Milli Elmlər Akademiyası Geologiya və Geofizika İnstitutunun əməkdaşlarının “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda geologiya və geofizika elminin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilsinlər:

Kəngərli Tələt Nəsrulla oğlu
Muxtarov Abdulvahab Şərif oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 noyabr 2018-ci il*

# İqtisadi inkişafın davamlılığı və dinamikliyi 2019-cu ildə də təmin ediləcək

*Əvvəli 1-ci səh.*

Oqtay Əsədov bildirib ki, 2019-cu ildə vergi sistemində köklü islahatların həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar Prezident İlham Əliyevin təqdimatları parlamentə daxil olub. Növbəti iclaslarda bu təqdimatları müzakirə edəcəyik. Vergi Məcəlləsində və digər qanunlarda köklü islahatlar nəzərdə tutulur. Məqsəd iqtisadi fəallığı stimullaşdırmaq, kiçik və orta sahibkarlığın inkişafına daha geniş meydan açmaqdır. Nəzərdə tutulan islahatlar ölkə iqtisadiyyatının inkişafına öz töhfəsini verəcək.

Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bildirib ki, Prezident İlham Əliyev dünya iqtisadiyyatında baş verən prosesləri, onların Azərbaycana təsirini obyektiv qiymətləndirir, dövlət və özəl sektor münasibətlərinin əməkdaşlıq səviyyəsinə çatması üçün sistemli tədbirlər həyata keçirir. Ölkədə müəyyən edilmiş strateji kursun reallaşması üçün icra mexanizmi yaradılır, hökumət strukturları, o cümlədən iqtisadi strukturlar arasında koordinasiya işinin səviyyəsinin yüksəlməsinə nail olunur. İqtisadi, siyasi, hüquqi islahatların qarşılıqlı əlaqəli şəkildə həyata keçirilməsi, ölkənin iqtisadi qüdrətinin artırılması, milli maraqların qorunması istiqamətində atılan uğurlu addımlar nəticəsində beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığın yeni keyfiyyət mərhələsinə keçirilməsi təmin edilib. Dövlət başçısının apardığı uğurlu siyasət ölkənin milli maraqlarının qorunmasına xidmət edir. İqtisadi təhlükəsizliyin təmin edilməsi istiqamətində görülən işlərin məntiqi nəticəsidir ki, dünyada baş verən maliyyə böhranı Avropa, ABŞ və digər çoxsaylı ölkələrdən fərqli olaraq Azərbaycan iqtisadiyyatı üçün sarsıntılar yaratmadı.

Komitə sədri qeyd edib ki, əmək bazarını sağlamlaşdırmaq, qeyri-rəsmi məşğulluğun səviyyəsini əhəmiyyətli dərəcədə azaltmaq və əməkhaqlarını leqallaşdırmaq məqsədilə neft-qaz sahəsində fəaliyyəti olmayan özəl sektorda 7 il müddətinə güzəştlər nəzərdə tutulub.

İclasda çıxış edən maliyyə naziri Samir Şərifov bildirib ki, Azərbaycan Respublikasının 2019-cu il icmal və dövlət büdcələrinin layihələri büdcə sistemi haqqında qanundan irəli gələn tələblər, Prezident İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf prioritetləri və sosial, iqtisadi siyasət hədəfləri, qlobal iqtisadiyyatda gedən proseslərin icmal və dövlət büdcələrinin əsas parametrlərinə ehtimal olunan təsirləri nəzərə alınmaqla tərtib olunub. Bu amillərlə yanaşı, proqnozlaşdırma zamanı İqtisadiyyat Nazirliyinin hazırladığı 2019-2022-ci illər üzrə ölkənin makroiqtisadi proqnoz göstəriciləri və gözlənilən iqtisadi meyillər büdcə parametrlərinin formalaşmasında istinad nöqtələri kimi qəbul edilib.

Nazir deyib ki, 2019-cu ilin icmal və dövlət büdcələri yeni qəbul edilmiş büdcə qaydasına uyğun olaraq hazırlanıb. Bu qaydanın tətbiqi dövlət xərclərinin prosiklikliyinin əhəmiyyətli dərəcədə aradan qaldırılmasını, dövlət gəlirlərinin formalaşmasında xüsusi çəkiyə malik olan neft gəlirindən əvvəlcədən müəyyən olunmuş fiskal çərçivə daxilində istifadəni hədəfləyir və orta və uzunmüddətli dövrdə büdcə intizamına, dayanıqlılığına təminat olacaq.

Qeyd edilib ki, təqdim olunmuş sənədlərdə icmal büdcənin xərcləri 27 milyard 372 milyon manat, dövlət büdcəsinin xərcləri isə 24 milyard 780 milyon manat məbləğlərində və ya cari illə müqayisədə müvafiq olaraq 797 milyon manat, 3 faiz və 1 milyard 680 milyon manat, 7,3 faiz çox nəzərdə tutulur. Göstərilən xərclərin məbləği büdcə qaydasında əks olunan üç meyara tam uyğundur. Həm xalis maliyyə aktivlərinin müəyyən edilmiş nisbət göstəricisindən azdır və cari ilin icmal və dövlət büdcələrinin xərclərinin 103 faizindən üstün deyil, həm də icmal büdcənin qeyri-neft baza kəsirinin ümumi daxili məhsulun nisbətinin tədricən azaldılması üzrə hədəfi təmin edir. Belə ki, bu, cari ilin göstəricisi ilə müqayisədə 1,7 faiz bənd aşağı olacaq. Büdcə xarici mənşəli risklərin ölkə iqtisadiyyatına mümkün mənfi fəsadları nəzərə alınaraq tərtib olunub, makroiqtisadi sabitliyə xələl gətirmədən iqtisadi artımı dəstəkləyir.





















Diqqətə çatdırılıb ki, 2017-2018-ci illərdə hökumətin həyata keçirdiyi islahat gündəliyi təlatümlü keçən əvvəlki iki ildən sonra ölkədə makroiqtisadi sabitliyin bərqərar olmasını və iqtisadiyyatın artım trayektoriyasına qayıtmasını təmin edib. Bu əsasda növbəti illərdə də makroiqtisadi sabitliyi təmin edərək iqtisadi artımın davam etdirilməsi aparılacaq iqtisadi siyasətin əsas məqsədlərindən olacaq. Bununla əlaqədar, bir tərəfdən artmaqda davam edən neft gəlirlərindən optimal istifadə və büdcə dayanıqlılığının təmin edilməsi, digər tərəfdən isə iqtisadi artım üçün münbit şəraitin formalaşdırılması, xüsusilə özəl sektor tərəfindən iqtisadiyyata investisiyaların artırılması əsas prioritetlərdəndir. Bu baxımdan xarici və daxili investorlar üçün əlverişli biznes mühitinin yaradılması, biznesin vergi yükünün optimallaşdırılması, maliyyə-bank sektoru tərəfindən sahibkarlara kredit dəstəyinin verilməsi xüsusi əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin bilavasitə tapşırığı ilə biznes mühitinin yaxşılaşması istiqamətində son illərdə həyata keçirilmiş tədbirlər Dünya Bankının “Doing Business 2019” hesabatında yüksək qiymətə layiq görülüb, Azərbaycan dünyada ən islahatçı ölkə kimi tanınaraq 190 ölkə arasında 25-ci yerə yüksəlib.

Nazir qeyd edib ki, iqtisadi artıma digər dəstək istiqaməti olaraq sahibkarlar üçün 2019-cu ildən vergi yükünün azaldılması ilə bağlı tədbirlərin reallaşdırılması nəzərdə tutulub. Bunların arasında ən nəzərəçarpanı neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergiödəyicilərinə muzdlu işdən aylıq gəlir vergisi üzrə 7 il müddətində güzəştin, bununla yanaşı, güzəştin alıcıları üçün məcburi dövlət sosial sığorta haqları üzrə ümumi yükün bir hissəsinin işçinin üzərinə ötürülməsidir. Bu islahatın əsas qayəsini iqtisadi fəaliyyətin stimullaşdırılması məqsədilə məcburi dövlət sosial sığorta haqları üzrə ümumi yükün işəgötürən və işçi arasında bölgüsünün daha da optimallaşdırılması, uçotda olmayan iş yerlərinin və orada çalışan işçilərin əməkhaqlarının leqallaşdırılması hesabına işləyənlərin sosial müdafiəsinin daha da gücləndirilməsinə zəmin yaradılmasıdır. Növbəti ildə qeyri-neft sektorunun inkişafı və sahibkarlıq fəaliyyətinin dəstəklənməsi məqsədilə kənd təsərrüfatı məhsullarının istehsalçılarına tətbiq olunan vergi güzəştinin daha beş il müddətinə uzadılması nəzərdə tutulur.

Bildirilib ki, 2019-cu il üçün dövlət büdcəsinin xərclərinin 9 milyard 891 milyon manatı və yaxud 39,9 faizi əsaslı xərclərə, bu məbləğin də 69 faizi və ya 6 milyard 825 milyon manatı dövlət əsaslı vəsait qoyuluşu xərclərinin maliyyələşdirilməsinə, bir sözlə, iqtisadi artıma dəstək verən dövlət investisiyalarına yönəldiləcək. Növbəti ildə dövlət büdcəsi xərclərinin 7,3 faiz artmasına və vergi sahəsinə təklif olunan güzəştlərin azaldıcı təsirlərinə baxmayaraq, Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin cari ilin səviyyəsində saxlanılmasına nail olunub. İcmal büdcədə isə 2 milyard 352 milyon manat məbləğində profisit gözlənilir ki, bu da növbəti ildə Dövlət Neft Fondunun ehtiyatlarının artmasını şərtləndirir.

Vurğulanıb ki, kənd təsərrüfatının dəstəklənməsi növbəti ildə də davam etdirilməklə bu sahəyə ayrılan xərclər cari illə müqayisədə 10,5 faiz artaraq 835 milyon manat səviyyəsində proqnozlaşdırılır.

Növbəti ilin dövlət büdcəsində kiçik və orta biznesin inkişafına 30 milyon manat, özəlləşdirmədən qabaq müəssisələrin sağlamlaşdırılması tədbirləri üçün 20 milyon manat, bir sıra dövlət müəssisələrində islahatların aparılması ilə bağlı texniki-iqtisadi əsaslandırmanın hazırlanması üçün 5 milyon manat vəsait nəzərdə tutulub.

Ölkənin qeyri-neft məhsullarının ixracının təşviqi, stimullaşdırılması və bu qəbildən olan digər tədbirlər üçün gələn ilin dövlət büdcəsindən 27 milyon manat vəsait ayrılacaq. Bu da cari illə müqayisədə 80 faiz çox deməkdir.

Azərbaycanda turizm sahəsinin inkişaf etdirilməsi məqsədilə dövlət büdcəsindən 63 milyon manat vəsait ayrılması nəzərdə tutulur. 2019-cu ilin dövlət büdcəsi sosialyönümlü büdcə ənənəsini davam etdirir. Belə ki, gələn ilin dövlət büdcəsində sosialyönümlü xərclər üçün 7 milyard 920 milyon manat vəsait proqnozlaşdırılıb. Bu da 2018-ci illə müqayisədə 798 milyon manat və ya 11,2 faiz çoxdur. Sosialyönümlü xərclərin dövlət büdcəsi xərcləri tərkibində xüsusi çəkisi 2018-ci illə müqayisədə 1,1 faiz bənd çoxdur. Gələn il ölkədə ehtiyac meyarının həddinin 13 manat artırılaraq 143 manata, əhalinin sosial demoqrafik qrupları üzrə yaşayış minimum məbləğinin 173 manatdan 180 manata çatdırılması nəzərdə tutulur. Qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı xərclər üçün 262 milyon manat vəsait ayrılacaq ki, bu da cari illə müqayisədə 7 faiz çox deməkdir. Ölkənin ərazi bütövlüyü uğrunda həlak olmuş və itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinə Azərbaycan Prezidentinin müvafiq sərəncamına əsasən cari ildən başlanmış birdəfəlik ödənişlərin verilməsi proqramının növbəti ildə də davam etdirilməsi üçün 50 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.

2019-cu ildə vətəndaşların güzəştli şərtlərlə mənzillərlə təmin edilməsi, hərbi qulluqçuların mənzillərlə təmin olunması, habelə kirayə götürülmüş yaşayış sahəsinə görə yaşayış yeri olmayan hərbi qulluqçulara ödənilən pul kompensasiyası ilə bağlı xərclərə 212 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Ümumiyyətlə, funksional təsnifatına görə dövlət büdcəsinin xərclərində 2018-ci illə müqayisədə 2019-cu ildə səhiyyə xərcləri 41,8 faiz, təhsil xərcləri 11,3 faiz, sosial müdafiə və sosial təminat xərcləri 9 faiz, mədəniyyət və incəsənət xərcləri 9,7 faiz, elm xərcləri isə 4,2 faiz artımla proqnozlaşdırılıb.

İqtisadiyyat naziri Şahin Mustafayev bildirib ki, Azərbaycan Respublikasının 2019-cu il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri büdcə sistemi haqqında qanunvericiliyin tələblərinə uyğun olaraq, dünya iqtisadiyyatının inkişaf meyilləri və qlobal çağırışlar, dövlət başçısı tərəfindən təsdiq edilmiş strateji yol xəritələri, inkişaf konsepsiyaları və dövlət proqramları ilə müəyyən edilmiş tədbirlər nəzərə alınmaqla hazırlanıb. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş davamlı inkişaf və ictimai-siyasi sabitlik bu siyasi kursun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmlənib, iqtisadiyyatın saxələndirilməsinin sürətləndirilməsi, qeyri-neft sektoru üzrə istehsalın və ixracın artırılması, dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, sahibkarlıq fəaliyyəti üçün biznes mühitinin və tənzimləyici bazanın yaxşılaşdırılması, biznesə yeni dəstək mexanizmlərinin yaradılması istiqamətlərində kompleks tədbirlər görülüb.

Nazir deyib ki, ortamüddətli dövr üçün ölkənin iqtisadi proqnozları hazırlanarkən kompleks iqtisadi islahatların davam etdirilməsi, bank sektorunun inkişafı, makroiqtisadi sabitliyə təsir edən xarici iqtisadi şokların yaşanmaması şərtləri əsas götürülüb, növbəti ildə inflyasiyanın 3,8 faiz olacağı proqnozlaşdırılıb. Qeyd edilənlər, habelə neft və qeyri-neft sektorunun inkişafı amilləri nəzərə alınmaqla 2019-cu ildə ümumi daxili məhsulun 3,6 faiz, növbəti illərdə orta hesabla 3,4 faiz artacağı, tədiyə balansının cari hesabının müsbət olacağı proqnozlaşdırılır.

Diqqətə çatdırılıb ki, gələn il “Şahdəniz” yatağında neft-qaz hasilatının artması hesabına neft sektorunda 3,1 faiz, növbəti illərdə orta hesabla 3,2 faiz artım gözlənilir. Növbəti ildə əsas kapitala investisiya qoyuluşları 17,9 milyard manat, o cümlədən xarici investisiyaların 7,5, daxili sərmayələrin 10,4 milyard manat təşkil edəcəyi proqnozlaşdırılır. Əsas kapitala investisiya qoyuluşlarının artacağı əsas götürülməklə 2019-cu ildə tikinti sektorunda artım 2,5 faiz gözlənilir.

Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi islahatların tərkib hissəsi olan investisiya təşviqi mexanizminin tətbiqi özəl investisiyaların artımına ciddi töhfə verir. İndiyədək 281 sahibkara 320 investisiya təşviqi sənədi verilib. 8 iqtisadi rayonu əhatə edən bu layihələrə 2,7 milyard manat investisiya yatırılmaqla 21 mindən çox yeni iş yerinin açılması nəzərdə tutulub. İnvestisiya təşviqi sənədi almış müəssisələrin 63 faizi artıq fəaliyyət göstərir, qalanı isə gələn ilin sonunadək fəaliyyətə başlayacaq. Bununla yanaşı, kompleks dövlət dəstəyi göstərilən, layihələrinin ümumi dəyəri 2,5 milyard manat təşkil edən və tikintisi davam etdirilən 181 istehsal və emal müəssisəsinin istifadəyə verilməsi qeyri-neft sektorunun inkişafına mühüm töhfə verməklə yanaşı, 19 min yeni iş yerinin açılması imkanı yaradacaq.

Həyata keçiriləcək kompleks tədbirlər nəticəsində iqtisadiyyatın prioritet sahəsi olan qeyri-neft sektorunun artımının 2019-cu ildə 3,9 faiz, növbəti illərdə isə orta hesabla 3,5 faiz olacağı proqnozlaşdırılır. Qeyri-neft sektorunun inkişafında xüsusi əhəmiyyətə malik qeyri-neft sənayesi üzrə cari ilin 9 ayında əlavə dəyər 11 faiz artıb, sənayeləşmə templəri yüksəlib, sənayenin aparıcı və ənənəvi sahələri ilə yanaşı, yeni sahələr yaradılıb, bir sıra məhsullar üzrə idxaldan asılılıq azalıb.

Şahin Mustafayev bildirib ki, Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə yaradılmış, qeyri-neft sənayesinin inkişafında mühüm rola malik sənaye parkları və məhəllələrində indiyədək 62 sahibkarlıq subyektinə rezident statusu verilib. Sumqayıt Kimya Sənaye Parkında layihələrinin ümumi dəyəri 2,8 milyard ABŞ dollarından artıq olan 18 müəssisəyə rezident statusu verilib, bunlardan 9-u artıq fəaliyyətə başlayıb, 5 müəssisənin ilin sonunadək, daha 3-nün isə gələn il istifadəyə verilməsi planlaşdırılır. Balaxanı Sənaye Parkının 1-ci sahəsində tullantıların təkrar emalı üzrə 5 rezident fəaliyyətə başlayıb, cari ildə müəssisələr tərəfindən istehsal edilmiş məhsulun 50 faizi ixrac olunub. Sənaye Parkının 2-ci sahəsində istehsal sahələrinin tikintisinə başlanılıb. Mingəçevir Sənaye Parkında istehsal gücü 20 min ton və dəyəri 85 milyon dollar olan 2 iplik fabriki 2018-ci ilin birinci rübündə istifadəyə verilib, 750 iş yeri açılıb. Bu fabriklərdə 3,5 min ton məhsul istehsal olunub, onun 2 min tonu ixrac edilib.

Qeyri-neft sənayesinin inkişafı üzrə həyata keçirilən islahatların gözlənilən nəticələri nəzərə alınmaqla, sahə üzrə 2019-cu ildə 9,7 faiz, növbəti illərdə orta hesabla 5,8 faiz artım proqnozlaşdırılır.

Nazir söyləyib ki, aqrar sektora dövlət dəstəyi mexanizmlərinin dərinləşməsi və intensiv texnologiyaların tətbiqi, kənd təsərrüfatı məhsullarının ixrac coğrafiyasının genişləndirilməsi, aqroparklar, iri fermer və bağçılıq təsərrüfatları, müasir heyvandarlıq və istixana kompleksləri, quşçuluq fabriklərinin fəaliyyətə başlaması, meliorativ tədbirlər nəticəsində yeni torpaq sahələrinin əkin dövriyyəsinə cəlb edilməsi bu sahədə iqtisadi artıma təsir edən əsas amillərdəndir. Ümumilikdə, kənd təsərrüfatının inkişafı istiqamətində aparılan kompleks tədbirlərin nəticəsi olaraq cari ilin 9 ayında bu sahədə real artım 4,3 faiz təşkil edib.

Hazırda 30 rayon üzrə 192 min hektar ərazidə investisiya dəyəri 1,4 milyard manat olan 45 aqroparkın yaradılması üzrə işlər sürətlə davam etdirilir. Bu çərçivədə 332 milyon manat dövlət maliyyə dəstəyi göstərilib ki, bunun da 219 milyon manatı infrastrukturun yaradılmasına yönəldilən dövlət investisiya qoyuluşu, 113 milyon manatı isə 17 aqroparka verilmiş güzəştli kreditlərdir. Bununla yanaşı, 15 aqropark üzrə dəyəri 566 milyon manat olan 27 layihəyə investisiya təşviqi sənədi verilib. Artıq 6 aqropark fəaliyyətə başlayıb, cari ilin sonunadək daha 12 aqroparkın fəaliyyətə başlaması gözlənilir. Qeyd edilənlər nəzərə alınaraq, aqrar sektor üzrə 2019-cu ildə 4,6 faiz, növbəti 3 ildə orta hesabla 4,5 faizdən çox artım gözlənilir.

İqtisadiyyat naziri deyib ki, qeyri-neft sektorunda xüsusi paya malik olan xidmətlər sektorunda 2019-cu və sonrakı illərdə orta hesabla 3,4 faiz artım proqnozlaşdırılır. Əvvəlki illərdə yaradılmış turizm infrastrukturu və bu sahədə həyata keçirilən tədbirlərin nəticəsi olaraq 2018-ci ilin 9 ayında bu sektorda real artım 7,6 faiz təşkil edib. 2019-cu ildə turizm sektorunun 6,7 faiz, növbəti 3 ildə orta hesabla 6 faiz artacağı proqnozlaşdırılır.

İnformasiya və rabitə sektorunda 2019-cu ildə 6,2 faiz, növbəti illərdə isə orta hesabla 7,1 faiz artım gözlənilir. 2018-ci ilin 9 ayında bu sektorda iqtisadi artım 7,7 faiz təşkil edib.

Görülən işlərin nəticəsi olaraq 2018-ci ilin 9 ayında nəqliyyat sektorunda 7,7 faiz real artımın qeydə alındığını deyən nazir bildirib ki, göstərilənlər nəzərə alınaraq 2019-cu ildə nəqliyyat sektorunda 5,2 faiz, sonrakı üç ildə isə orta hesabla 4,7 faiz artımın olacağı proqnozlaşdırılır.

Nazir vurğulayıb ki, dövlət başçısı tərəfindən sahibkarlığın inkişaf etdirilməsi, biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması ilə bağlı verilən qərarlar və görülən sistemli tədbirlər iqtisadiyyatın dayanıqlı inkişafı baxımından strateji xarakter daşıyır.

Həyata keçirilən kompleks tədbirlər nəticəsində cari ilin 9 ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə qeyri-neft məhsullarının, o cümlədən sənaye, kənd təsərrüfatı məhsullarının ixracı 13 faiz artıb.

Büdcə layihəsinə Hesablama Palatası da rəy verib.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov deyib ki, növbəti il üçün əsaslı xərclərin, ümumiyyətlə, investisiya məbləğinin cari illə müqayisədə nəzərəçarpacaq artımla proqnozlaşdırılmadığını, bununla yanaşı, ÜDM-in cari il üzrə real artım tempinin 2,0 faiz səviyyəsində gözlənildiyini, həmçinin qarşıdakı ildə bu parametrin 3,6 faiz səviyyəsində nəzərdə tutulduğunu nəzərə alsaq, həm ilin sonuna qalan dövr, həm də növbəti il ərzində ÜDM-in daha sürətli artımının ehtimal olunduğu və proqnozlaşdırıldığı qənaətindəyik.

Hesablama Palatası müxtəlif ölkələrin təcrübəsinin araşdırılması yolu ilə növbəti ilin dövlət büdcəsinin icrasına təsir göstərə biləcək bir neçə risk amilini müəyyən edib. “İlk olaraq büdcə zərfinə dövlət büdcəsinin layihəsinin bir ssenari üzrə daxil edilməsini qeyd etmək istərdim. Qəbul edilmiş büdcə qaydasının, eyni zamanda, dövlət büdcəsinin neft gəlirlərindən asılılığının azaldılmasına xidmət etdiyini nəzərə alaraq, bu qayda ilə müəyyən edilmiş hədlər çərçivəsində dövlət büdcəsinin optimist, adi və pessimist ssenarilər üzrə tərtibi büdcə parametrlərinin necə dəyişəcəyini müşahidə etməyə, o cümlədən itkilərin minimuma endirilməsinə, gəlirlərin mobilizasiyasına, həmçinin xərclərin səmərəliliyinin və nəticəliliyinin artırılmasına şərait yaradar”, - deyə Hesablama Palatasının sədri bildirib.

Diqqətə çatdırılıb ki, rəydə, həmçinin idxal inflyasiyasının artımına təsir edəcək amillərin mövcudluğu, dövlət borcunun dinamik deyil, statik xarakterli göstəricilərlə dəyərləndirilməsi, cari xərclərin artım tempinin qeyri-neft sektorunun nominal tempindən 4,6 faiz bəndi çox olmaqla nəzərdə tutulması da dövlət büdcəsinin icrasına təsir göstərməyə qadir olan risklər kimi qeyd edilib, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən büdcə inzibatçılığının gücləndirilməsi, vəsaitlərin təsirliliyinin artırılması ilə bağlı tapşırıqların icrasına xidmət edəcək nəticə əsaslı büdcənin tərtibi üzrə normativ sənədlərin hazırlanması və qəbulu dövlət resurslarının institusional imkanlarının genişləndirilməsinə və icra səviyyəsinə müsbət təsir göstərən amil olaraq vurğulanıb.

Məlum olduğu kimi, cari ildə “Büdcə sistemi haqqında” Qanuna büdcə qaydalarını müəyyən edən maddə əlavə olunub. Bu qaydaların məqsədi makroiqtisadi dayanıqlılığı, maliyyə və borc intizamını təmin etməkdən ibarətdir. 2019-cu ilin dövlət büdcəsi büdcə qaydalarının nəzərə alınması ilə tərtib edilən ilk büdcədir. Büdcə qaydasına uyğun olaraq, ilk növbədə, icmal büdcənin xərclərinin yuxarı həddi müəyyən olunub. Həmin hədd cari ilin təsdiq olunmuş icmal büdcə xərclərinin 103 faizdən çox olmaması ilə müəyyən edilib. Büdcə zərfində 2019-cu ilin icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-nə nisbəti 29,5 faiz olmaqla cari ilin göstəricisindən aşağı olmaqla proqnozlaşdırıldığı göstərilib və buna əsaslanaraq büdcə qaydalarının tələbinə əməl edildiyi vurğulanmalıdır. Müvafiq metodikanın büdcə zərfinə daxil edilməməsi səbəbindən Hesablama Palatası beynəlxalq təcrübəyə əsaslanaraq 4 müxtəlif metodika üzrə həmin göstəricinin hesablanmasını həyata keçirərək rəyə bu barədə məlumatlar daxil edib.

Ümumiyyətlə, Hesablama Palatası İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv olan dövlətlərdə daha geniş yayılmış “vergi boşluğu”nun qiymətləndirilməsini təklif edir. “Vergi boşluğu” anlayışına fərqli yanaşmalar mövcud olsa da, ümumilikdə, qeyd edilməlidir ki, “vergi boşluğu” il ərzində ödənilməli olan vergi məbləği ilə könüllü şəkildə vaxtında ödənilən vergi məbləği arasındakı fərqdir. Bu göstəricinin hesablanılması və büdcə zərfinə daxil edilməsi yeni vergitutma obyektlərinin cəlb edilməsi, eyni zamanda, kölgə iqtisadiyyatının miqyasının ildən-ilə azaldılması yolu ilə vergi inzibatçılığının səmərəliliyinin yüksəldilməsinə xidmət edər. Eyni zamanda, bu yanaşma potensial və faktiki vergi daxilolmalarının həcmi arasında fərqə təsir edən amillərin müəyyənləşdirilməsi vasitəsilə bu fərqin azaldılmasına və könüllü bəyanetmə səviyyəsinin yüksəldilməsinə də şərait yaratmış olar.

Vüqar Gülməmmədov bildirib ki, dövlət büdcəsinin kəsiri 2019-cu ildə dövlət büdcəsinin xərclərinin strukturunda nəzərdə tutulan dəyişikliklərlə əlaqədar xaricdən cəlb edilmiş kreditlər, özəlləşdirmədən daxilolmalar və vahid xəzinə hesabının qalığı hesabına maliyyələşdiriləcək. Ümumiyyətlə, kəsirin maliyyələşmə məbləğinin növbəti ildə dövlət büdcəsinin gəlir və xərc parametrlərinin gözlənilən icra göstəriciləri ilə müqayisəsi 2019-cu ilin dövlət büdcəsinin kəsirlə başaçatma ehtimalını minimallaşdırır.

“Dövlət borcu ilə bağlı ilk olaraq qeyd edim ki, 2019-cu ilin dövlət borcunun limit göstəriciləri “Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya”ya uyğun şəkildə proqnozlaşdırılıb”, - deyə sədr vurğulayıb.

Qeyd edilib ki, Hesablama Palatası müasir dövrdə fiskal risklərin nəzərə alınması baxımından ən yaxşı təcrübə olaraq müəyyən edilən göstəricilərə əsaslanaraq 5 metodoloji sənəd əsasında təhlil həyata keçirib, ümumilikdə, hər bir yanaşmada borc göstəricilərinin kritik hədd normalarından uzaq olduğu, ölkəmizdə borc dayanıqlılığının təmin edildiyi qənaətindədir.

“2019-cu ilin dövlət büdcəsinin layihəsi müstəqillik dövrünün manat ifadəsində ən böyük büdcəsi olaraq tərtib olunub və qeyd edildiyi kimi, ilk dəfə olaraq büdcə qaydaları nəzərə alınıb. Təqdim edilmiş rəy isə Hesablama Palatası haqqında yeni qanunun qüvvəyə mindiyi dövrdən hazırlanmış ilk rəydir. Bu baxımdan tərəfimizdən daha praktik yanaşmaların tətbiq edilməsinə, mümkün büdcə riskləri, vəsaitlərin icraçılar üzrə bölgüsü üzrə daha ətraflı məlumatların təqdim olunmasına çalışmışıq. Bu zaman beynəlxalq standart və təcrübələrdən də geniş istifadə etmişik”, - deyə Vüqar Gülməmmədov bildirib.

Vurğulanıb ki, növbəti il üçün dövlət büdcəsinin layihəsi, ümumilikdə, müəyyən edilmiş prioritet istiqamətlər üzrə tərtib olunmaqla Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulmuş hədəflərin reallaşdırılmasına xidmət etmək məqsədi daşıyır və mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə təqdim edilib.

Müzakirələr zamanı çıxış edən deputatlar xeyli təkmil olan 2019-cu ilin dövlət büdcəsi layihəsinin qanunvericiliyə uyğun hazırlandığını bildiriblər. Qeyd edilib ki, 2019-cu ildə də dövlət büdcəsinin sosialyönümlülüyünün davam etdirilməsi, əhalinin rifah halının yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi ölkənin əsas maliyyə sənədinin müsbət cəhətlərindəndir.

Deputatlar çıxışlarında bəzi təkliflər də səsləndiriblər.

Müzakirələr noyabrın 14-də davam etdiriləcək.

***AZƏRTAC***

***Foto Fərman BAĞIROVUNDUR***

# Slovakiyanın Baş naziri ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib



Slovakiya Respublikasının Baş naziri Peter Pelleqrininin rəhbərlik etdiyi nümayəndə heyəti noyabrın 13-də Fəxri xiyabanda xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, sonra Şəhidlər xiyabanına gedən qonaqlar ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının xatirəsini yad ediblər. Baş nazir Peter Pelleqrini "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.



Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən nümayəndə heyətinin üzvlərinə Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

# Azərbaycanla Slovakiya arasında ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsi xüsusi əhəmiyyətə malikdir





Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov noyabrın 13-də ölkəmizdə rəsmi səfərdə olan Slovakiya Respublikasının Baş naziri Peter Pelleqrini ilə görüşüb. AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın və Slovakiyanın Baş nazirlərinin təkbətək görüşü olub.

Görüşdə iki ölkə arasında əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

Sonra Baş nazir Novruz Məmmədovun və Baş nazir Peter Pelleqrininin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirilib.

Azərbaycan ilə dost Slovakiya arasında yaxşı əlaqələrin olduğunu bildirən Novruz Məmmədov qeyd edib ki, Baş nazir Peter Pelleqrininin ölkəmizə səfəri ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Azərbaycanın Baş naziri ölkələrimizin xalqları arasında yaxınlaşmanın önəmini də vurğulayıb. "Hesab edirəm ki, Azərbaycan ilə Slovakiya arasında beynəlxalq təşkilatlar çərçivəsində və ikitərəfli müstəvidə əlaqələrin daha da inkişaf etdirilməsi üçün yaxşı perspektivlər mövcuddur", - deyə Novruz Məmmədov bildirib.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə danışan Baş nazir Novruz Məmmədov problemin həllində Azərbaycanın prinsipial və ədalətli mövqeyi barədə həmkarına ətraflı məlumat verib. Bildirib ki, münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Baş nazir son illər ölkəmizdə yüksək səviyyəli beynəlxalq tədbirlərin keçirildiyini, bunun üçün mükəmməl infrastrukturun yaradıldığını bildirərək Bakı şəhərinin "Ekspo 2025" Ümumdünya Sərgisinə evsahibliyi üçün namizədliyinin irəli sürüldüyünü diqqətə çatdırıb və bu məsələdə Slovakiyanın Azərbaycana dəstək verəcəyinə ümidvar olduğunu vurğulayıb.

Slovakiya ilə Azərbaycan arasında dostluq münasibətlərinin olduğunu qeyd edən Baş nazir Peter Pelleqrini ölkəsinin bu əlaqələrin daha da inkişafında maraqlı olduğunu bildirib. Slovakiyanın Baş naziri əməkdaşlığın dayanıqlı inkişafının təmini məqsədilə iki ölkə arasındakı münasibətlərin hüquqi bazasının möhkəmləndirilməsinin vacibliyini qeyd edib.

Söhbət zamanı Bakıda keçirilən Azərbaycan-Slovakiya biznes forumunun əlaqələrin genişləndirilməsi baxımından əhəmiyyəti diqqətə çatdırılıb, həmçinin iki ölkə arasında sənaye, energetika, kənd təsərrüfatı, turizm, İKT və nəqliyyat sahələrində əməkdaşlıq üçün yaxşı imkanların olduğu bildirilib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

# Bakıda Azərbaycan-Slovakiya biznes forumu keçirilib





İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə noyabrın 13-də Bakıda Azərbaycan-Slovakiya biznes forumu keçirilib.

Tədbirdə Azərbaycan və Slovakiya rəsmiləri ilə yanaşı, sənaye, energetika, İKT, maşınqayırma, kimya, qida, dəmir yolları, səhiyyə və s. sahələrdə fəaliyyət göstərən 200-ə yaxın şirkətin nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Şahin Mustafayev biznes forumun birbaşa danışıqlar aparmaq və işgüzar dairələr arasında əməkdaşlığın perspektivli sahələrini müəyyənləşdirmək üçün əlverişli platforma olduğunu, tədbirin iş adamlarına konkret layihələrlə bağlı müzakirələr aparmaq üçün imkan verəcəyini vurğulayıb. Qeyd olunub ki, Azərbaycan Avropa İttifaqı (Aİ) ölkələri, o cümlədən Slovakiya ilə əlaqələrin inkişafına böyük əhəmiyyət verir. Bu gün Azərbaycan və Avropa İttifaqı arasında geniş əməkdaşlıq mövcuddur. Çoxsaylı işgüzar forumlar, tədbirlər, imzalanmış sənədlər, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində rolu və davam edən birgə layihələr uğurlu iqtisadi əməkdaşlığın nümunələridir.

Avropa İttifaqının Azərbaycanın əsas xarici ticarət tərəfdaşı olduğunu deyən nazir bildirib ki, 2017-ci ildə Aİnin Azərbaycanın ticarət dövriyyəsində payı 42 faiz (9,4 milyard dollar) təşkil edib və 2018-ci ilin 9 ayında 26 faiz artaraq 9 milyard dollardan çox olub.

Nazir Şahin Mustafayev diqqətə çatdırıb ki, Azərbaycan və Slovakiya arasında ticarət dövriyyəsi bu ilin 9 ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə 33 faiz artıb. Hazırda Azərbaycanda xidmət, ticarət, tikinti, nəqliyyat və s. sahələrdə Slovakiya sərmayəli 11 şirkət fəaliyyət göstərir. Bununla belə, ölkələrimiz arasında qarşılıqlı ticarət, iqtisadi və investisiya əməkdaşlığını daha da inkişaf etdirmək imkanları var. İqtisadiyyat naziri Azərbaycan və Slovakiya arasında sənaye, energetika, kənd təsərrüfatı, turizm, İKT və nəqliyyat sahələrində əməkdaşlıq üçün potensialı qeyd edib, hər iki ölkənin işgüzar dairələrini əlverişli biznes mühitdən istifadə etməyə, Azərbaycan və Slovakiya arasında ticari-iqtisadi əlaqələrin inkişafına töhfə verəcək qarşılıqlı faydalı birgə layihələr həyata keçirməyə dəvət edib.

Şahin Mustafayev Azərbaycan iqtisadiyyatı, həyata keçirilən islahatlar və beynəlxalq maliyyə institutlarının hesabatlarında ölkəmizin mövqeyinin yaxşılaşması barədə də məlumat verib. Qeyd olunub ki, Azərbaycan Cənubi Qafqazın siyasi və iqtisadi mərkəzidir. Cənubi Qafqazda ÜDM istehsalının 60 faizdən çoxu Azərbaycanın payına düşür. Azərbaycanı xarici investisiyalar üçün cəlbedici edən xüsusiyyətlər ölkənin tranzit potensialı, reallaşdırılan regional layihələr, əlverişli biznes mühiti və sairdir. Azərbaycanın uğurları beynəlxalq maliyyə institutları tərəfindən də yüksək qiymətləndirilir. Belə ki, Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan öz mövqeyini 32 pillə yaxşılaşdıraraq 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, 10 islahatçı ölkədən biri olub.

Slovakiya Respublikasının Baş naziri Peter Pelleqrini Azərbaycana səfərindən məmnunluğunu bildirib, biznes forumda çoxlu sayda iş adamının iştirak etməsinin əlaqələrin inkişafına verilən önəmin göstəricisi olduğunu vurğulayıb. Bildirilib ki, Azərbaycan qısa müddət ərzində böyük inkişaf yolu keçib, regionun önəmli ölkələrindəndir. Peter Pelleqrini Slovakiya iş adamlarının energetika, bərpa olunan enerji, maşınqayırma, kimya, İKT və s. sahələrdə əməkdaşlıqda maraqlı olduğunu qeyd edib, biznes forumun əməkdaşlığın genişləndirilməsinə, yeni əlaqələrin qurulmasına töhfə verəcəyini deyib. Vurğulanıb ki, yaxın zamanlarda Slovakiyanın Azərbaycanda səfirliyinin açılması, eləcə də ölkələrimiz arasında birgə Hökumətlərarası Komissiyanın yaradılması nəzərdə tutulur.

Sonra AZPROMO-nun rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev, Slovakiyanın İnvestisiya və Ticarətin Təşviqi Agentliyinin (SARİO) rəhbəri Tibor Buçek və SARİO-nun nümayəndəsi Tomaş Şandor müvafiq olaraq Azərbaycanın və Slovakiyanın biznes və investisiya mühiti barədə təqdimatlarla çıxış ediblər.

Biznes forumda Slovakiya iş adamları fəaliyyətləri barədə məlumat verib, iş adamları arasında ikitərəfli görüşlər keçirilib.

# İçərişəhərlə tanışlıq Slovakiyanın Baş nazirində zəngin təəssürat yaradıb





Azərbaycan Respublikasında rəsmi səfərdə olan Slovakiya Respublikasının Baş naziri Peter Pelleqrininin rəhbərlik etdiyi nümayəndə heyəti noyabrın 13-də İçərişəhərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Qız qalasından başlanan tanışlıq zamanı qonaqlara Bakının rəmzlərindən biri sayılan abidənin tarixi barədə məlumat verilib.

Bildirilib ki, eramızdan əvvəl VII-VI əsrlərdə əsası qoyulmuş Qız qalası XII əsrdə bərpa edilib. Hündürlüyü 28 metr, diametri 16-16,5 metr olan abidə silindr formalı əsl qaladan və cənub tərəfdən ona bitişən iri dayaq tikilidən ibarətdir. Dünya əhəmiyyətli bu abidənin qorunub saxlanması və mövcud görkəmdə gələcək nəsillərə çatdırılması üçün Prezident İlham Əliyevin tapşırıqları əsasında 2009-2013-cü illərdə burada konservasiya işləri aparılıb.

Qız qalasının yaxınlığındakı Sıratağlı dini-memarlıq kompleksinin ərazisindəki daş ekspozisiyanın yenidən təşkili işləri qonaqların böyük marağına səbəb olub.



Elektromobillə gəzinti zamanı Baş nazirə və nümayəndə heyətinin üzvlərinə UNESCO-nun Dünya Mədəni İrsi Siyahısına daxil edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, burada aparılan abadlaşdırma və bərpa işləri barədə məlumat verilib. Qeyd edilib ki, İçərişəhər ərazisində müxtəlif əsrlərə aid nadir tarixi memarlıq abidələri var və bunlar dövlət tərəfindən qorunur.

Daha sonra qonaqlar orta əsr Şərq memarlığının şah əsəri, dünya əhəmiyyətli tarixi-memarlıq abidəsi olan Şirvanşahlar sarayı kompleksi ilə tanış olublar.

Məlumat verilib ki, XV əsrin əvvəllərində inşa olunmuş tarixi abidənin tikililəri İçərişəhərin təpələrindən birinin ən hündür nöqtəsində yerləşir. Abidə Xəzər dənizindən və şəhərin ətrafındakı yüksəkliklərdən aydın görünür. Kompleks bu günədək öz tarixi-memarlıq üstünlüyünü saxlamaqdadır.

İçərişəhərlə tanışlıq Slovakiyanın Baş nazirində zəngin təəssürat yaradıb.

# Məşğulluq siyasətinin əsas hədəflərini müəyyənləşdirən yeni sənəd

## 2030-cu ilədək ölkədə işsizliyin səviyyəsi 4 faizə, o cümlədən qadınlar və gənclər arasında minimuma endiriləcək

Son 14 ildə Azərbaycanda 1,96 milyon yeni iş yeri açılıb. Bunların 73,3 faizi daimi iş yerləridir. Regionların sosial-iqtisadi inkişafına yönəldilən dövlət proqramlarının icrası sayəsində bölgələrdə açılan iş yerlərinin sayı da xeyli artıb.

Belə ki, yeni iş yerlərinin 70 faizdən çoxu bölgələrin payına düşür. Dövlətin qeyri-neft sektorunun inkişafını prioritet elan etməsinin nəticələri də özünü göstərir. Belə ki, iş yerlərinin əksəriyyəti bu sektorda, yəni tikinti, ticarət, xidmət, emal sənayesi, nəqliyyat və digər sahələrdə açılıb. Prezident İlham Əliyevin 30 oktyabr 2018-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının məşğulluq strategiyası" isə ölkədə məşğulluq siyasətinin bundan sonrakı əsas hədəflərini müəyyən etmişdir.

Hələ 13 il əvvəl dövlət başçısı tərəfindən "Azərbaycan Respublikasının məşğulluq strategiyası (2006-2015-ci illər)" təsdiq olunmuşdur. Bu strategiya iki mərhələdə uğurla həyata keçirilmişdir. Hazırda ölkədə əhalinin sayı 10 milyon nəfərə yaxınlaşır. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu il sentyabrın 1-i vəziyyətinə əhalinin sayı 9 milyon 950 min 512 nəfər olub. Azərbaycan demoqrafik baxımdan sabit inkişaf edən ölkə sayılır. 2006-2017-ci illər ərzində ölkədə əhalinin orta illik artım sürəti 1,3 faiz təşkil edib. Bu, Avropa ölkələri arasında ən yüksək göstəricilərdən biridir. Başqa bir önəmli fakt odur ki, hazırda Azərbaycanda doğulanların sayı ölənlərin sayını üç dəfəyə yaxın üstələyir. Proqnozlara əsasən, 2030-cu ildə ölkədə əhalinin sayı 10,7 milyon nəfərə çatacaq.

Hələ Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev demişdir: "2014-cü ildən bu günə qədər 2 milyona yaxın yeni iş yeri açılmışdır. Amma baxın, əhali də nə qədər artmışdır. Bu gün Azərbaycan əhalisi 10 milyona yaxınlaşır. Bizim əhalimiz sovet dövrünün son mərhələsində 7 milyon, bəlkə də ondan bir qədər çox idi. Görün müstəqillik illərində əhalimiz nə qədər artıb. Bu, bizim böyük gücümüzdür, gücümüzü artırır. Eyni zamanda, qarşımızda vəzifələr qoyur".

Ölkədə çoxsaylı iş yerlərinin yaradılması indi uşaq və yeniyetmə olan Azərbaycan vətəndaşlarının sabahına, yeni məktəblərin, uşaq bağçalarının, tibb müəssisələrinin tikilməsi əhalinin getdikcə artmasına hesablanıb. Başqa sözlə, dövlət əhalinin artımını nəzərə alaraq məqsədyönlü sosial-iqtisadi tədbirlər həyata keçirir, bu sahədə müvafiq sərəncam və fərmanlar imzalanır, proqram və layihələr reallaşdırılır. "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının məşğulluq strategiyası" sözügedən istiqamətdə atılan mühüm addımlardan biridir.

Strategiyanın əsas məqsədi məşğulluq siyasətinin ekstensiv mərhələdən intensiv mərhələyə keçirilməsini təmin etmək, əhalinin məşğulluq səviyyəsini artırmaq, tam məşğulluğa nail olmaq, layiqli əməyi dəstəkləmək və əmək məhsuldarlığını yüksəltməkdir. Bu strategiya məşğulluqyönümlü iqtisadi inkişaf siyasətinin həyata keçirilməsini, mikro, kiçik və orta sahibkarlığı dəstəkləməyi nəzərdə tutur. Onun həyata keçirilməsi nəticəsində əmək bazarının tənzimlənməsi sayəsində normativ hüquqi baza və institusional struktur təkmilləşdiriləcək. İşçi qüvvəsinin bacarıq və səriştəsi inkişaf etdiriləcək, əmək standartları mükəmməlləşdiriləcək. Hədəfə eləcə də aktiv məşğulluq tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi və səmərəliliyin artırılması, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların əmək bazarına inteqrasiyasının gücləndirilməsi, sosial dialoqun inkişaf etdirilməsi və qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması dayanır. Bu istiqamətdə qarşıda duran vəzifələr Prezident İlham Əliyevin 6 dekabr 2016-ci il fərmanı ilə təsdiq edilmiş milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin icrası çərçivəsində nəzərdə tutulub.

"2019-2030-cu illər üçün Azərbaycan Respublikasının məşğulluq strategiyası"nda qeyd edilir ki, keçən il ölkədə iqtisadi fəal əhalinin sayı 2005-ci illə müqayisədə 693,7 min nəfər artıb. Bununla belə, iqtisadi fəaliyyət növləri arasında əmək məhsuldarlığı göstəricilərində ciddi fərqlər mövcuddur. Məsələn, kənd təsərrüfatında əmək məhsuldarlığının səviyyəsinin aşağı olması qeyd edilir. Bu, sahədə intensiv üsullardan, innovasiya və məsləhət xidmətlərindən zəif istifadə edilməsi, eləcə də işçi qüvvəsinin əksəriyyətinin ixtisassız olması ilə əlaqələndirilir. Ümumiyyətlə, qloballaşma, yeni iş yerlərinin yaradılması, müasir istehsal və idarəetmə texnologiyalarının tətbiqi, əmək şəraitinin müasirləşdirilməsi yüksək peşə bacarığı olan işçilərə ehtiyacı artırır.

Sənəddə həmçinin göstərilir ki, gənclər və qadınlar arasında işsizliyin səviyyəsi ölkə göstəricisindən çoxdur. Odur ki, strategiya 2030-cu ilədək işsizlik səviyyəsini 4 faizə, o cümlədən qadınlar və gənclər arasında işsizliyi minimuma endirməyi qarşıya məqsəd qoyur. Bu istiqamətdə həyata keçirilən tədbirlər sayəsində işləməyən və təhsil almayan gənclərin xüsusi çəkisini azaltmaq nəzərdə tutulub.

Dövlət məşğulluq xidməti orqanlarına müraciət etmiş vətəndaşların işə düzəlmə səviyyəsini 2030-cu ilədək 70 faizə çatdırmaq hədəflənir. Eləcə də qarşıya bu orqanlara müraciət etmiş vətəndaşların peşə hazırlığına cəlb olunmasını artırmaq, regional peşə təhsili mərkəzlərinin sayını çoxaltmaq məqsədi qoyulur.

Qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi sayəsində yüksək əlavə dəyər yaradan və çox əmək sərf olunan sahələrə diqqət artırılacaq. İqtisadi məhsuldarlığın daha yüksək səviyyəyə qalxmasına nail olunacaq. 2030-cu ilədək əmək məhsuldarlığı iki dəfəyə qədər yüksəldiləcək.

Strategiyanın həyata keçirilməsi bir çox müsbət nəticələr verəcək. Əmək bazarında baş verən proseslərə uyğun çevik institusional sistem formalaşacaq. Əhalinin məşğulluq və layiqli iş imkanları genişlənəcək. İnklüziv məşğulluq təmin ediləcək. Təhsil sistemi əmək bazarı ilə uyğunlaşdırılacaq. Məşğulluq və sosial müdafiə arasında əlaqə güclənəcək və s.

2019-2030-cu illəri əhatə edən bu strategiya bir-birini tamamlayan iki mərhələdə reallaşdırılacaq. Hər bir mərhələ üçün tədbirlər planı ölkə Prezidenti tərəfindən təsdiq ediləcək.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Bakıda gənclər təşkilatlarının V Respublika sərgisi açılıb





Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə noyabrın 13-də "Baku Crystal Hall"un Media Mərkəzində 100-dən çox gənclər təşkilatının təmsil olunduğu V Respublika sərgisi açılıb.

AZƏRTAC xəbər verir ki, sərginin açılışında Baş nazirin müavini Əli Əhmədov, Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, gənclər və idman naziri Azad Rəhimov, eləcə də gənclər təşkilatlarının nümayəndələri iştirak ediblər.

Sərgi ilə tanışlıq zamanı məlumat verilib ki, V Respublika sərgisində gənclər təşkilatlarına özlərini təqdim etmələri, nailiyyət və imkanlarını göstərmələri, təcrübə mübadiləsi aparmaları və ictimai əlaqələrini genişləndirmələri üçün əlverişli şərait yaradılıb. Respublikamızdakı Gənclər evlərinin də təmsil olunduğu sərgi çərçivəsində gənclər üçün müxtəlif mövzularda təlimlər və maarifləndirici tədbirlər də keçirilir.

Gənclər və idman nazirinin müavini İntiqam Babayev sərgi ilə bağlı jurnalistlərə açıqlamasında bildirib ki, belə tədbirlər ölkəmizdə fəal gənclərin müəyyənləşdirilərək üzə çıxarılması, onların bilik və bacarıqlarının inkişafı baxımından mühüm rol oynayır. Bugünkü sərgidə 11 Gənclər evi və 85 gənclər təşkilatı iştirak edir ki, bu da V Respublika sərgisinin miqyasının ildən-ilə genişləndiyini göstərir. Ənənəyə əsasən, sərgidə Azərbaycanın aparıcı gənclər təşkilatlarının fəaliyyəti, dövlət gənclər siyasəti çərçivəsində icra olunan proqramlar və qazanılan uğurlar nümayiş olunur. Belə sərgilər fəal gənclərin işlərini ictimaiyyətə geniş şəkildə çatdırmaq baxımından da mühüm əhəmiyyət kəsb edir və bu, tədbirin əsas hədəfidir.

Qeyd edək ki, sərgi Prezident İlham Əliyevin 2017-ci il 15 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının 5.7.4-cü yarımbəndinin (Gənclər təşkilatlarının fəaliyyətinin təşviq edilməsi, onların həyata keçirdikləri layihə və tədbirlər haqqında cəmiyyətin məlumatlandırılması və gənclərin ictimai fəaliyyətə cəlb olunmalarının stimullaşdırılması məqsədi ilə sərgilərin təşkil edilməsi) icrası istiqamətində təşkil olunub.

# İslahatlar dərinləşir, istehsal artır

*Əvvəli 1-ci səh.*

Hazırda ölkəmizdə aqrar islahatlar müxtəlif mərhələlər üzrə paralel aparılır. İlk növbədə kiçik və orta fermer təsərrüfatlarının inkişafına qayğı göstərilir. Təsadüfi deyil ki, dövlət tərəfindən ayrılan güzəştli kreditlərin 80 faizindən çoxu regionlarda çalışan sahibkarlara, xüsusən kənd təsərrüfatı məhsulları istehsalçılarına verilir. Bu gün güzəştli kreditlərdən istifadə edən kəndli təsərrüfatını genişləndirərək daha çox məhsul istehsal etməyə imkan qazanıb. Üstəlik, əvvəllər kiçik olan bir çox fermer təsərrüfatları güzəştli maliyyə vasitələri hesabına təsərrüfatlarını genişləndirmək imkanı əldə ediblər. Hətta 10 il bundan əvvəl kiçik və orta fermer kimi fəaliyyətə başlayanların bir çoxu indi iri fermer təsərrüfatlarının sahibidir.

Elə kənd təsərrüfatında aparılan islahatların növbəti mərhələsi də iri fermer təsərrüfatları və aqroparkların yaradılmasıdır. Sadə bir misal: ölkəmizdə cari il təxminən 3 milyon tondan çox taxıl tədarük edilib ki, bu uğurda da iri fermer təsərrüfatlarının rolu böyükdür. Belə ki, taxılçılıqda ən yüksək nailiyyətlər iri fermer təsərrüfatlarında əldə edilib. Bu cür təsərrüfatlarda hər hektardan 50 sentner məhsul götürüldüyü halda, digər kiçik və orta fermer təsərrüfatlarında həmin rəqəm ən yaxşı halda 30 sentner olub. Səbəb aqroparklarda müasir texnika və texnologiyalardan istifadə edilməsidir. Üstəlik, aqroparklar istehsal etdikləri məhsulu emal edə bilirlər. Belə hal həm də məhsul itkisinin qarşısını alır. Bu üstünlüklərdən əlavə, aqroparklar məhsul istehsalının həcmi böyük olduğu üçün məhsullarını müştəri taparaq birbaşa xarici bazara çıxara da bilirlər.

Hazırda ölkə üzrə 199 min hektar sahədə 45 aqroparkın yaradılması üçün konkret işlər görülür. Artıq 4 aqropark fəaliyyət göstərir, ilin sonunadək isə daha 13-nün fəaliyyətə başlaması nəzərdə tutulub. Onu da qeyd edək ki, aqroparklar istehsal təyinatına görə müxtəlifdir. İndi əsasən bitkiçilik və tərəvəzçilik sahəsi üzrə ixtisaslaşan aqroparklar yaradılır. Gələcəkdə isə yeni sahələr üzrə aqroparklar yaradılacaq.

Gələn ildə də aqrar sektorun dəstəklənməsi davam edəcək. Dövlət büdcəsi layihəsində 2019-cu ildə bu sahəyə 835 milyon manat ayrılması nəzərdə tutulub. Layihədə kənd təsərrüfatı sahəsində vergi güzəştlərinin daha 5 il qüvvədə qalması, o cümlədən kənd təsərrüfatına subsidiyalar üçün 540 milyon manat vəsaitin ayrılması da gözlənilir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Yığım davam edir



Payızın, necə deyərlər, oğlan çağıdır. Təxminən bir aydan sonra qış başlayır. Bu səbəbdən indi kəndlinin, xüsusən də pambıqçının işi başından aşır. Bir tərəfdən də yağışlar. Düzdür, hələ pambıq əkib-becərmiş aran rayonlarına elə də güclü yağışlar düşməyib. Amma pambıq mövsümünün sonunadək havaların belə keçəcəyinə də zəmanət vermək çətindir. Bütün hallarda payızdır və onun öz "qayda"ları var. Odur ki, pambıqçının əsas işi yığım üçün əlverişli keçən hər günün qədrini bilmək, hər gündən maksimum istifadə etməkdir.

Dövlət Statistika Komitəsinin pambıq tədarükünə dair noyabrın 13-ə olan məlumatdan da görünür ki, pambıqçılar belə də edirlər. Məlumata görə, ölkə üzrə indiyədək 209,3 min tondan çox pambıq yığılıb ki, bu da ötən ilin eyni dövrünədək toplanmış məhsuldan 35,5 min ton və ya 20,4 faiz çoxdur. Yığımda hesabat gününədək 15,8 min hektardan 27,5 min ton pambıq tədarük etmiş Saatlı, 9,6 min hektardan 22,5 min ton məhsul toplamış Bərdə, 10 min hektardan 21,5 min ton pambıq yığmış Ağcabədi, 12 min hektardan 19,9 min ton məhsul tədarük etmiş Biləsuvar, 9,5 min hektardan 19,6 min ton pambıq yığmış Beyləqan, 13,6 min hektardan 16,3 min ton məhsul tədarük etmiş İmişli, 13 min hektardan 15,6 min ton pambıq yığmış Sabirabad rayonları yenə də fərqlənənlər sırasındadır. 9,5 min tonla Salyan, 9,3 min tonla Neftçala, 7,6 min tonla Goranboy, 7,4 min tonla Tərtər, 5,06 min tonla Ağdam, 5,02 min tonla Yevlax, 4,4 min tonla Zərdab rayonları da cari mövsümdə istehsalın həcmi və yığımın sürətində seçilirlər.

Yığımsa sürətlə davam edir. Havaların imkan verəcəyi halda bu sürət davam edərsə, ölkə üzrə qarşıya qoyulan hədəfə - 260 min ton pambıq tədarükünə nail olunması şübhə doğurmur.

**13.11.2018-ci il tarixə pambıq tədarükünə dair operativ məlumat**

| Rayonlar | Əkin sahəsi, hektar | | | 13 noyabr tarixə pambıq qəbulu məntəqələrinə təhvil verilmişdir, ton | | |
|---|---|---|---|---|---|---|
| | 2018-ci il | 2017-ci il | 2018-ci il 2017-ci ilə nisbətən | 2018-ci il | 2017-ci il | 2018-ci il 2017-ci ilə nisbətən |
| **Respublika üzrə cəmi** | **132512,0** | **136413,2** | **97,1%** | **209368,22** | **173846,71** | **120,4%** |
| Ağcabədi rayonu | 10000,0 | 9550,0 | 104,7% | 21541,83 | 16616,52 | 129,6% |
| Ağdam rayonu | 3100,0 | 3005,0 | 103,2% | 5063,42 | 5222,06 | 97,0% |
| Ağdaş rayonu | 3185,0 | 3000,0 | 106,2% | 3553,02 | 3115,40 | 114,0% |
| Ağsu rayonu | 2600,0 | 2500,8 | 104,0% | 1758,56 | 2157,60 | 81,5% |
| Beyləqan rayonu | 9560,0 | 8550,0 | 111,8% | 19615,10 | 13518,52 | 145,1% |
| Bərdə rayonu | 9630,0 | 8518,5 | 113,0% | 22544,06 | 18133,37 | 124,3% |
| Biləsuvar rayonu | 12000,0 | 11351,8 | 105,7% | 19900,58 | 21298,39 | 93,4% |
| Cəlilabad rayonu | 505,0 | 500,0 | 101,0% | 1069,81 | 877,80 | 121,9% |
| Füzuli rayonu | 2100,0 | 2050,0 | 102,4% | 1851,75 | 1625,90 | 113,9% |
| Goranboy rayonu | 5000,0 | 5000,0 | 100,0% | 7656,89 | 5403,70 | 141,7% |
| Hacıqabul rayonu | 1300,0 | 1203,9 | 108,0% | 1047,67 | 575,46 | 1,8 dəfə |
| İmişli rayonu | 13645,0 | 15641,5 | 87,2% | 16345,52 | 11347,45 | 144,0% |
| Kürdəmir rayonu | 5030,0 | 4027,0 | 124,9% | 6002,50 | 3965,25 | 1,5 dəfə |
| Neftçala rayonu | 7000,0 | 11111,0 | 63,0% | 9347,82 | 7930,37 | 117,9% |
| Saatlı rayonu | 15815,0 | 17220,0 | 91,8% | 27575,64 | 23631,40 | 116,7% |
| Sabirabad rayonu | 13055,0 | 15055,0 | 86,7% | 15643,02 | 15692,47 | 99,7% |
| Salyan rayonu | 7055,0 | 7052,4 | 100,0% | 9517,61 | 7576,60 | 125,6% |
| Samux rayonu | 400,0 | 53,0 | 7,5 dəfə | 892,70 | 37,20 | 24 dəfə |
| Tərtər rayonu | 3300,0 | 3123,0 | 105,7% | 7452,39 | 7190,60 | 103,6% |
| Ucar rayonu | 2500,0 | 2500,0 | 100,0% | 1483,89 | 1720,59 | 86,2% |
| Yevlax şəhəri | 2500,0 | 2168,0 | 115,3% | 5022,19 | 2520,36 | 2 dəfə |
| Zərdab rayonu | 3232,0 | 3232,3 | 100,0% | 4482,25 | 3689,70 | 121,5% |

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi**

# Şüvəlanda "Şimal" Elektrik Stansiyasının ərazisində ehtiyatda olan transformatorda yanğın baş verib



Fövqəladə Hallar Nazirliyinin (FHN) Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə paytaxtın Xəzər rayonunun Şüvəlan qəsəbəsində "Şimal" Elektrik Stansiyasının ərazisində ehtiyatda olan transformatorda yanğının baş verməsi barədə məlumat daxil olub.

FHN-dən AZƏRTAC-a bildiriblər ki, Dövlət Yanğından Mühafizə Xidmətinin yanğından mühafizə bölmələri dərhal əraziyə cəlb olunub. Həyata keçirilmiş operativ tədbirlər nəticəsində yanğın söndürülüb.

Fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov və nazirliyin digər rəhbər şəxsləri yanğınla əlaqədar hadisə yerinə gəliblər.

# Yanğın nəticəsində 46 məcburi köçkün ailəsinin müvəqqəti yaşayış sahəsi yararsız vəziyyətə düşüb

Noyabrın 13-də səhər saatlarında Binəqədi rayonunun Məmməd Əmin Rəsulzadə qəsəbəsində məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı sanatoriyada baş vermiş yanğın nəticəsində 46 məcburi köçkün ailəsinin müvəqqəti yaşayış sahəsi yararsız vəziyyətə düşüb.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bununla əlaqədar Fövqəladə Hallar Nazirliyi (FHN) tərəfindən müvəqqəti sığınacaq üçün 15 çadır quraşdırılıb, yataq dəsti və müvafiq avadanlıqla təchiz edilib.

Dövlət Komitəsinin sədri Rövşən Rzayev, Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev, komitənin və icra hakimiyyətinin məsul əməkdaşları hadisə yerində olub, yaranmış problemin həlli üçün birlikdə müvafiq tədbirlər görüblər.

Dövlət Komitəsi tərəfindən siyahıyaalınma aparılıb, yanğın nəticəsində müvəqqəti yaşayış yerindən məhrum olan 46 ailəni kirayə mənzillərdə yerləşdirmək qərara alınıb.

Hazırda FHN-in mütəxəssisləri tərəfindən yanğının başvermə səbəbləri araşdırılır. Araşdırmadan sonra yekun rəy veriləcək. Rəy əsasında müvafiq hüquqi addımlar atılacaq. Xatırladaq ki, noyabrın 13-də Binəqədi rayonunun Məmməd Əmin Rəsulzadə qəsəbəsində məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı sanatoriya binasında yanğın baş verib. FHN-in Dövlət Yanğından Mühafizə və Xüsusi Riskli Xilasetmə xidmətlərinin müvafiq xilasetmə qüvvələri hadisə yerinə cəlb olunub.

Ümumi sahəsi 3600 kvadratmetr olan binanın üçüncü mərtəbəsində otaqların və taxta arakəsmələrin 132, dəhlizin 168, dam örtüyünün isə 20 kvadratmetrlik hissəsi yanıb, qalan hissəsi yanğından mühafizə olunub. Yanğından mühafizə bölmələri tərəfindən alov söndürülüb.

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, noyabrın 14-də Füzuli rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru, Saymon Tiller və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun (YSPQ) nümayəndəsi polkovnik-leytenant Aleksandr Nepokrıtıx keçirəcəklər. Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, onun səhra köməkçiləri Genadi Petrika, Oqnyen Yoviç və YSPQ-nin rəhbəri polkovnik-leytenant Harri Okoner aparacaqlar.

# Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə ardıcıl tədbirlər görülür



Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə məhkəmə fəaliyyəti təkmilləşdirilir, vətəndaşların məhkəmələrə əlçatanlığı asanlaşdırılır, infrastruktur müasirləşdirilir. Azərbaycan ədliyyəsinin 100 illik yubileyi ərəfəsində Zaqatalada Rayon Məhkəməsi üçün ən son texnologiyalarla təchiz olunmuş yeni müasir binanın istifadəyə verilməsi bu sahədə fəaliyyətin yüksək səviyyədə təşkilinə, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına və insan hüquqlarının etibarlı təminatına töhfə verib.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yeni binanın açılışında iştirak etmiş ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov Şəki Apelyasiya Məhkəməsində bölgənin məhkəmə sədrləri və hakimlərinin iştirakı ilə geniş müşavirə keçirib.

Tədbirdən əvvəl nazir Fikrət Məmmədov, Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov, Apelyasiya Məhkəməsinin sədri Mübariz Əkbərov ümummilli lider Heydər Əliyevin Şəki şəhərindəki abidəsini ziyarət edərək önünə gül dəstələri qoyub, dahi şəxsiyyətin əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Sonra dövlət başçısının Şəkidə yenicə açılışını etdiyi Heydər Əliyev Mərkəzi, Bayraq Muzeyi, "ASAN Həyat" Kompleksi və "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzi ilə tanışlıq olub.

Ədliyyə Nazirliyinin və Məhkəmə-Hüquq Şurasının aidiyyəti məsul işçilərinin iştirak etdikləri müşavirədə məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülən tədbirlər, mövcud nöqsanlar və qarşıda duran vəzifələr müzakirə olunub.

F.Məmmədov ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə tədbirlərdən, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsindən, hakimlərin Avropada nümunə kimi göstərilən şəffaf seçimindən, "Elektron məhkəmə" informasiya sisteminin və yeni məhkəmə infrastrukturunun yaradılmasından bəhs edib, cəza siyasətinin humanistləşdirilməsinə dair Azərbaycan Prezidentinin 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası üzrə görülən işlərdən danışıb.

Bildirilib ki, Cinayət Məcəlləsinin dekriminallaşması nəticəsində yeni Qanunun təsiri altına düşən 5700-ə yaxın məhkumun cəzası yüngülləşdirilib, o cümlədən 1700-dək şəxs azadlıqdan məhrumetmə və digər cəzalardan azad olunub. Azadlığın məhdudlaşdırılması yeni cəza növünə məhkum edilmiş 500-dək şəxs üzərində elektron qolbaq tətbiq olunmaqla səmərəli probasiya nəzarəti həyata keçirilir.

Müşavirədə sərəncamla məhkəmələrin üzərinə düşən mühüm vəzifələr diqqətə çatdırılaraq, insan haqlarının, xüsusilə azadlıq hüququnun qorunmasında hakimlərin yüksək məsuliyyəti vurğulanıb.

Həmçinin vətəndaşlara qayğılı münasibət göstərilməsi, korrupsiyaya şərait yaradan halların qarşısının alınması ilə bağlı dövlət başçısının qəti tapşırıqlarının icrası üzrə tədbirlər qeyd olunub, məhkəmə hakimiyyətində mənəvi cəhətdən saf hakimlərin təmsil edilməsi, apelyasiya məhkəmələrindən prinsipiallığın artırılması, neqativ hallara qarşı barışmaz münasibət göstərilməsinin zəruriliyi vurğulanıb. Bundan başqa, antikorrupsiya mədəniyyətinin yüksəldilməsi, qeyri-prosessual münasibətlərin qarşısının alınması, etik davranış qaydalarına dönmədən əməl edilməsi üzrə qarşıda duran vəzifələr diqqətə çatdırılıb.

Məhkəmə fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə mövcud vakansiyaların doldurulması üzrə görülən tədbirlərə toxunularaq, ilk dəfə olaraq ali və bütün apelyasiya məhkəmələrinin 30 hakimin təyinatı ilə tam komplektləşdirildiyi bildirilib. Səlahiyyət müddəti başa çatmış 60-dan çox, o cümlədən müşavirədə iştirak edən hakimlərin fəaliyyətinin prinsipial qiymətləndirilməsi qeyd olunub, vətəndaşların haqlı narazılığını doğuran halların yolverilməzliyi vurğulanıb.

Həmçinin şəffaf və çoxmərhələli imtahanlarda müvəffəqiyyət qazanaraq hakim vəzifəsinə layiq bilinmiş 108 namizəd barəsində yaxın günlərdə təyinatların aparılacağı və bununla da hakim korpusunun tam əksəriyyətinin komplektləşdiriləcəyi bildirilib.

# Azərbaycan regionda digər sahələrdə olduğu kimi, paralimpiya hərəkatında da lider ölkədir



Ölkəmizdə səfərdə olan Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti Endrü Parsons noyabrın 13-də Azərbaycan Milli Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimov ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə İlqar Rəhimov ölkəmizdə paralimpiya hərəkatının mövcud durumu və inkişafı barədə qonağa ətraflı məlumat verib. Qeyd olunub ki, Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı nəticəsində ölkəmizdə paralimpiya hərəkatı sürətlə inkişaf edir.

İ.Rəhimov bildirib ki, Azərbaycan Milli Paralimpiya Komitəsi 1996-cı ildə iki idman növü ilə fəaliyyətə başlayıb. Fəaliyyəti dövründə paralimpiya millimiz 6 Yay Paralimpiya Oyununda iştirak edib. Hazırda komitənin nəzdində 14 yay və 3 qış idman növləri üzrə paralimpiya milli komandaları fəaliyyət göstərir. İdmançılarımızdan 7-si Paralimpiya, 7-si dünya, 17-si Avropa çempionu, 1-i Avropa Oyunlarının, 12-si isə İslam Həmrəyliyi Oyunlarının qalibidir.

Diqqətə çatdırılıb ki, paralimpiya hərəkatının regionlarda sürətli inkişafının təmin edilməsi məqsədilə 2018-ci ildə Gəncədə Azərbaycan Milli Paralimpiya Komitəsinin regional bölməsi yaradılıb. 2017-ci ildə Azərbaycan Əlil Arabasında Qılıncoynatma Federasiyası və cari ildə Azərbaycan Boccia İdman Federasiyası fəaliyyətə başlayıb. 2013-cü ildə beynəlxalq təcrübədə ilk dəfə olaraq, Azərbaycan Milli Paralimpiya Komitəsinin nəzdində Uşaq Paralimpiya Komitəsi (UPK) yaradılıb. Azərbaycan Milli Paralimpiya Komitəsi tərəfindən idarə olunan UPK-nin məqsədi sağlamlıq imkanları məhdud uşaqların idmana cəlb olunması yolu ilə ehtiyat idmançıların hazırlanması və onların abilitasiya və reabilitasiya vasitəsilə cəmiyyətə inteqrasiyasına dəstək verməkdir.

Federasiya prezidenti bildirib ki, 2015-ci ildən başlayaraq hər il respublika üzrə Uşaq Paralimpiya İdman Oyunları keçirilir. Cari il noyabrın 13-də IV Oyunlar başlayıb. Keçiriləcək yarışlara respublikanın müxtəlif regionlarından sağlamlıq imkanları məhdud 130-dan çox paralimpiyaçı uşaq idmanın 8 növü üzrə mübarizəyə qoşulub. İlk dəfə olaraq, Oyunlarda Gürcüstandan olan uşaqlar da iştirak edirlər. Milli Paralimpiya Komitəsi paralimpiya idman növləri ilə yanaşı, əlil arabasında idman rəqsi, paraşütla tullanma və boulinq qeyri-paralimpiya idman növlərinin inkişafına da dəstək verir.

Endrü Parsons Azərbaycan Milli Paralimpiya Komitəsinin fəaliyyətini yüksək qiymətləndirib. O deyib ki, Azərbaycan regionda digər sahələrdə olduğu kimi, paralimpiya hərəkatında da lider ölkədir.

Görüşdə 2020-ci ildə Yaponiyanın paytaxtı Tokioda keçiriləcək XVI Yay Paralimpiya Oyunlarına hazırlıqla əlaqədar geniş müzakirələr aparılıb.

# Sutka ərzində atəşkəs rejimi 24 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Tovuz rayonunun Ağbulaq, Muncuqlu kəndlərində və Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub. Ağdam rayonunun işğal altında olan Kəngərli, Sarıcalı, Novruzlu, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.




"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi istiqamətində son illər görülən işlər sayəsində Göyçay şəhərinin də, rayon mərkəzinin də, kəndlərin də siması xeyli dəyişmişdir.



# Dövlət dəstəyi və yatırılan sərmayələr inkişafı sürətləndirir



Təkcə bu ilin əvvəlindən indiyədək iqtisadi və sosial sahələrin inkişafı üçün maliyyə mənbələrindən əsas kapitala 12,9 milyon manat investisiya yönəldilib. Rayonun tikinti təşkilatları tərəfindən 8,5 milyon manatlıq tikinti-quraşdırma işləri görülüb. Emal sənayesinin daha da inkişaf etdirilməsi məqsədilə "Aznar" QSC-nin ərazisində yeni şərab emalı sexi inşa edilərək orada ən müasir avadanlıqlar quraşdırılıb. Müəssisədə üzümün qəbuluna və ilkin emala başlanılıb.

Asiya İnkişaf Bankının krediti hesabına maliyyələşən Göyçay şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidənqurulma layihəsi çərçivəsində Şəhadət kəndində şəhərin çirkab sularını təmizləyən qurğunun istismara buraxılması üçün son yoxlama işləri aparılır.

Yerli əhəmiyyətli kəndlərarası avtomobil yollarının yenidən qurulması və əsaslı təmiri işləri də davam etdirilir. Bığır-Çırqurd-Şəkər-Veysəlli-Alıkənd-Mırtı avtomobil yolunun yenidən qurulması başa çatdırılıb. Uzunluğu 23 kilometr olan Cəyirli-Alpout kəndlərarası avtomobil yolunun tikintisinə başlanıb.



Təhsilin inkişafı, bu sahədəki çatışmazlıqların aradan qaldırılması da diqqətdə saxlanılır. Alıkənd kəndində modul tipli 40 şagird yerlik ibtidai məktəb binası inşa edilib. Yerli iş adamlarının vəsaiti hesabına Potu kənd tam orta məktəbi əsaslı təmir edilərək 8 yeni sinif otağı istifadəyə verilib. Alpout kəndində 40 yerlik uşaq bağçasının tikintisində son tamamlama işləri görülür.

Ümumiyyətlə, tikinti, abadlıq və quruculuq sahəsində görülən işlər genişmiqyaslıdır. Yeni müasir avtovağzal istifadəyə verilib. Əli Kərim adına parkda təmir başa çatdırılıb. Soyqırımı abidəsi Şəhidlər xiyabanına köçürülərək əsaslı şəkildə yenidən qurulub. Parkda Azərbaycanın məşhur yazıçı və şairlərinin xatirə kompleksi inşa edilib. Heydər Əliyev parkının ərazisində bayraq muzeyi tikilir, Heydər Əliyev prospektindəki xiyabanda abadlıq və əsaslı yenidənqurma işləri davam etdirilir. Əhalinin rahatlığını təmin etmək üçün şəhərin M.Hüseynzadə küçəsindəki Təzə bazara bitişik ərazidə kənd təsərrüfatı məhsullarının pərakəndə satışı üçün hərtərəfli şərait yaradılıb.

Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda verdiyi tapşırıqlara uyğun olaraq rayon iqtisadiyyatının yüksəldilməsi istiqamətində hədəflər də müəyyən edilmişdir. Bunlar əsasən aqrar sahə ilə bağlıdır. Torpaq sahələrindən daha səmərəli istifadə edilməsi vacib amillərdəndir. Kənd təsərrüfatının ayrı-ayrı sahələrinin, xüsusən tərəvəzçilik və meyvəçilik sahəsində daha mütərəqqi metodlardan istifadə etmək, müasir istixana komplekslərinin qurulması və intensiv meyvə bağlarının salınması qarşıya məqsəd qoyulub.

Yeri gəlmişkən onu da qeyd edək ki, Göyçay torpaq imkanları məhdud olan rayonlardandır. Odur ki, taxıl istehsalını əkin sahələrinin məhsuldarlığının yüksəldilməsi, rayonun sənaye potensialından, emal müəssisələrinin layihə üzrə istehsal güclərindən tam istifadə edilməsi, emal müəssisələrində yeni istehsal sahələrinin yaradılması, bazar tələblərinə uyğun rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalının artırılması da qarşıda duran əsas hədəflərdəndir.



*Əli SƏLİMOV, "Azərbaycan"*

# Taxılçılığa maraq da artıb, istehsal da





Ərzaq məhsulları içərisində taxılın xüsusi yeri var. Məhz buna görə də fermerlərə göstərilən dövlət qayğısı sayəsində bu vacib ərzaq məhsulunun istehsalına maraq artmış, nəticədə əkin sahələrinin genişləndirilməsi ilə yanaşı, məhsuldarlıq da yüksəlmişdir.

Ağstafa taxılçıları da hər il uğurlu göstəricilərə nail olurlar. Cari ilin məhsulu üçün keçən il 10 min hektarda səpin aparılmış, yüksək aqrotexniki tədbirlərin həyata keçirilməsi nəticəsində bu il zəmilərdən bol məhsul götürülmüşdür. Belə ki, 1640 hektarda arpa səpini aparan fermerlər 44214 ton məhsul əldə etməklə orta hesabla hər hektardan məhsuldarlığı 25,7 sentnerə çatdırmışlar. Buğda istehsalı da nəzərdə tutulduğundan çox olmuşdur. Zəmilərdən 26846 ton buğda yığılmışdır ki, bu da hər hektardan 31 sentner məhsul deməkdir.

Hazırda rayonun taxılçılıqla məşğul olan fermerləri gələn ilin bol məhsulu üçün hazırlıq işlərinə başlamışlar. Builki göstəricidən razı qalan torpaq sahibləri əkin sahələrini bir qədər də genişləndirərək, 12 min hektara çatdırmağı qarşılarına məqsəd qoymuşlar. İndi fermerlər əlverişli keçən hava şəraitindən maksimum istifadə etməyə çalışırlar. Həyata keçirilən tədbirlər nəticəsində 10 min hektara yaxın torpaq şumlanmış, 1550 hektardan çox sahədə səpin aparılmışdır. Hazırda hər gün əkin sahələrinə 30-dan çox texnika çıxarılır.

Rayon icra hakimiyyətindən aldığımız məlumata görə, taxıl səpini ilə əlaqədar rayonda qaynar xətt və operativ qərargah yaradılmışdır. Əkin və səpin vaxtı qarşıya çıxan hər hansı problem yerindəcə həll edilir. Bundan başqa, rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin mütəxəssisləri əkin və səpin aparılan sahələrdə olur, məsləhət və tövsiyələr verirlər.

Rayonda taxıl istehsalı ilə məşğul olan təsərrüfatlardan biri "Aqroservis" MMC-nin nəzdində olan "Ağstafa süd" ASC-dir. Keçən il 2700 hektar sahədə taxıl əkən kollektiv uğurlu göstəriciyə nail olub. Orta hesabla hər hektardan 36 sentner məhsul götürən taxılçılar hazırda gələn ilin yüksək məhsulu üçün zəmin yaradırlar. Artıq işin çox hissəsi görülüb. Yaxın bir neçə günə səpini başa çatdırmaq üçün bütün qüvvələr səfərbərliyə alınıb. Əsasən Almaniya istehsalı olan traktorlar və səpin aqreqatlarının məhsuldarlığı olduqca yüksəkdir. Artıq Saloğlu qəsəbəsində, Ağgöl, Böyükkəsik kəndi ərazilərində isə səpin başa çatdırılmışdır.

Səpilən taxıl toxumu rayonda istehsal edilir. Burada toxumçuluq üzrə bir neçə təsərrüfat ixtisaslaşıb. Belə təsərrüfatlardan birinə Adil Nəsibov başçılıq edir. Bu təsərrüfatda hər il 100 hektar sahədə taxıl əkilir. Əkin sahələri əsasən kənd sakinlərinin pay torpaqlarıdır. İcarəyə götürülmüş bu torpaqlarda hər il yüksək məhsuldarlıq əldə edilir. Məsələn, cari ildə hər hektardan 40 sentner məhsul götürən fermer deyir ki, bu rəqəm bizi qətiyyən razı salmır. Çalışırıq ki, 45-50 sentnerə çatdıraq. Bunun üçün böyük imkanlarımız var. Su sarıdan da korluğumuz yoxdur. Əkin-səpin üçün 4 traktorumuz, 2 taxılbiçən kombaynımız və 1 taxıldaşıyan nəqliyyat vasitəmiz var. Taxılçılara dövlət səviyyəsində də çox kömək göstərilir. Hər hektardan götürdüyümüz məhsula görə subsidiya alırıq. İmkanlarımızı götür-qoy edərək bu il əkin sahələrini bir qədər də genişləndirib 150 hektara çatdırmağı qərara almışıq.

Fermer məhsul satışında da elə bir problemin olmadığını bildirərək dedi ki, əsas alıcımız Kənd Təsərrüfatı Nazirliyinin nəzdində fəaliyyət göstərən bitki sortlarının qeydiyyatı və toxum nəzarəti xidmətidir. Hər il səpindən sonra alınmış çıxışı nəzərdən keçirən xidmətin əməkdaşları sahədən nümunə götürüb laboratoriyada müayinə edirlər. Taxılın kondisiyası, cücərmə faizi və keyfiyyəti ilə bağlı ümumi rəy verildikdən sonra məhsulun alıcısı olur.

Rayonda daha çox taxıl yetişdirən fermerlərdən biri də Xətai kəndindəki Bayram Musayevdir. Bu təsərrüfatda da ən çox toxumçuluğun inkişaf etdirilməsinə diqqət yetirilir. Burada 60 hektar taxıl əkilir. Hər il hər hektardan 35-40 sentner məhsul götürür. Əkin-səpin işlərində işlədilən texnikanı "Aqroservis" ASC-dən alan fermer söhbət zamanı dedi ki, texnikanın kənardan alınması məhsulun maya dəyərinə mənfi təsir göstərir. Buna görə gələcəkdə lazım olan səpin və biçin texnikalarının alınması qarşıda duran əsas məqsədlərdəndir.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

# Qabaqlayıcı tədbirlər yaxşı nəticə verir

Respublikamızın digər regionları kimi, Balakəndə də heyvandarlığın inkişaf etdirilməsinə ciddi diqqət yetirilir. Bu işdə dövlət dəstəyi də mühüm rol oynayır. Bunlardan biri ayrılan güzəştli maliyyə vəsaiti hesabına daha keyfiyyətli və məhsuldar heyvanların xaricdən alınmasıdır. Son iki ildə rayon fermerləri 130-a yaxın cins inəyi lizinq yolu ilə alıblar.

Digəri süni mayalama ilə bağlıdır. Hazırda rayonda 5 süni mayalama texniki fəaliyyət göstərir. Mal-qaranın və ev quşlarının peyvəndlənməsi üçün nəzərdə tutulan vaksinlər də dövlət vəsaiti hesabına təmin olunur.

Rayon baytarlıq idarəsinin rəisi Sucəddin Cəfərov deyir ki, onlar 38 min iribuynuzlu və 37 min xırdabuynuzlu mal-qaraya xidmət edirlər. Artıq rayonda iribuynuzlu heyvanlarda dabaq xəstəliyinə qarşı peyvəndləmə işlərinin aparılması yekunlaşmaq üzrədir. Bu məqsədlə respublika Baytarlıq Xidməti tərəfindən 25 min vaksin ayrılmışdır. İlk peyvəndləmə işləri sərhəd kəndlərində aparılıb. Xırdabuynuzlu heyvanlarda isə çiçək xəstəliyinə qarşı peyvənd edilib.

Hazırda rayonda epizootik vəziyyət normaldır. Bu da onunla əlaqədardır ki, idarə lazım olan dərman və preparatlarla təmin olunur. İdarə rəisi vacib bir məsələyə də toxunaraq dedi ki, son 15-20 il ərzində baytarlıq ixtisasına maraq azalmışdı. Bu da bir neçə ildən sonra kadr çatışmazlığı ilə nəticələnə bilərdi. Bunu nəzərə alıb kəndlərdə əhali ilə danışıqlar apardıq. Nəticə yaxşıdır. Övladlarını baytarlıq ixtisasına yönəltməyə maraq göstərənlərin sayı artıb.

*Ə.SƏLİMOV, "Azərbaycan"*



# Relslər Salyanda qaynaqlanır

Salyan şəhərindəki 24 saylı Rels Qaynaqlama Qatarı Cənubi Qafqazda rels qaynaq edən iki müəssisədən biridir. Adından da göründüyü kimi, polad yolların relsləri burada cilalanır, bir-birinə qaynaq edilir və digər texnoloji proseslərdən sonra təyinatı üzrə ünvanına göndərilir.





Müəssisə 1961-ci ildə yaradılıb. Uzun müddət ona "Fəxri dəmiryolçu" Xeyrulla Əliyev rəhbərlik edib. Çalışdığı illər ərzində kollektiv üçün çox işlər görüb. Müəssisə Azərbaycan Dəmir Yolu İdarəsinin, habelə Salyan rayonunun qabaqcıl müəssisələrindən birinə çevrilib. Burada yenidənqurma işləri aparılıb, Rusiya Federasiyasından, Ukraynadan gətirilən və müasir standartlara cavab verən avadanlıqlar quraşdırılıb. Nizam-intizamın, işgüzarlığın, yüksək təşkilatçılığın sayəsində plan və tapşırıqlara vaxtında və keyfiyyətlə əməl olunub, fəhlələr, mütəxəssislər yaxşı əməkhaqqı alıblar. İşçilərə gündə bir dəfə pulsuz isti yemək verilib. Bu məqsədlə idarənin nəzdində yardımçı təsərrüfat yaradılıb, yeməkxana binası inşa edilib. Fəhlələr işə müəssisənin xüsusi avtobusları ilə gəlib-gedibləр. Yaranan mehriban münasibət, səmimiyyət nəticəsində kollektiv üzvləri bir-birlərinin xeyrində-şərində fəal iştirak ediblər. Yaxşı haldır ki, bu ənənələr indi də davam edir.

"Dəmiryolçu" deyəndə göz önünə ağırtonlu yükləri, sərnişinləri müxtəlif ünvanlara daşıyan qatarlar gəlir. Bu baxımdan dəmir yolunun fasiləsiz işləməsi ölkənin dinamik inkişafı deməkdir. Bu gün Bakı-Tbilisi-Qars dəmir yolu Qərblə Şərq arasındakı iqtisadi əlaqələrin inkişafında mühüm rol oynayır. İndi bu dəmir yolu xətti ilə hər gün min tonlarla yük daşınır və gələcəkdə bu yüklərin həcmi daha da artacaq. Şimal-Cənub dəmir yolunun əsaslı şəkildə yeniləndirilməsi də tranzit yüklərin daşınmasına əlverişli şərait yaradacaq. Prezident İlham Əliyev Cənub bölgəsinə səfəri zamanı əhali ilə görüşündə qeyd etmişdir ki, yolun Lənkəran şəhərinin dəniz sahili boyunca uzanan hissəsi şəhərdən kənara çıxarılacaq. Nəticədə yol həm təzələnəcək, şəhər əhalisi səs-küydən, təhlükədən azad olacaq, həm də turizm üçün imkanlar genişlənəcək.

Bu və ya digər layihələrin reallaşmasında Salyandakı 24 saylı Rels Qaynaqlama Qatarı kollektivinin də payı var. İdarəyə hazırda gənc mütəxəssis İlqar Əliyev rəhbərlik edir. O, müəssisənin keçmiş şöhrətinin yaşadılması və daha da inkişafı üçün əlindən gələni əsirgəmir. Bunlara görə İlqar Əliyev 13 oktyabr Dəmiryolçular Günü münasibətilə "Tərəqqi" medalı ilə təltif edilmiş, idarənin baş mühəndisi X.Ağayev isə "Fəxri dəmiryolçu" adına layiq görülmüşdür.

İş prosesi ilə tanış olmaq üçün qaynaq sexinə baş çəkdik. Buradakı mənzərə biz təsəvvür etdiyimizdən tam fərqlidir. Həyata keçirilən işlər bütünlüklə avtomatlaşdırılmışdır. Bayırda üst-üstə qalaqlanmış relslər elektrik qaldırıcıları vasitəsilə diyircəkli xəttin üzərinə qoyularaq sexə göndərilir. Burada qaynaq Rusiya istehsalı olan xüsusi avadanlıqda, komplektləşdirilmiş sistemlə həyata keçirilir. Texnoloji xətt rusiyalı mütəxəssislərlə birgə quraşdırılmışdır. Müəssisəyə relslər Çexiya Respublikasından gətirilir. Sifarişə əsasən onlar burada bir-birinə qaynaq edilir. Növbəti mərhələdə bu relslər xüsusi vaqonlarla lazımi ünvana daşınır. Həmin vaqonların üzərinə quraşdırılmış qaldırıcı kranlar vasitəsilə qaynaq edilmiş relslər hissə-hissə yolun hazırlanmış yatağına düzülür. Sonra Ukraynadan alınmış "KSM-005" markalı səyyar maşınla qaynaq işi aparılır. Yeri gəlmişkən, bu maşın həm dəmir, həm də avtomobil yolu ilə hərəkət edə bilir.

Rels Qaynaqlama Qatarının rəhbərliyi çoxillik müsbət təcrübəni bu gün də uğurla davam etdirir. İş şəraitinin yaxşılaşdırılması, əməyin mühafizəsinin təşkili diqqət mərkəzindədir. Bununla əlaqədar kollektivin hər bir üzvünə xüsusi geyimlər və digər ləvazimatlar verilmişdir. İdarənin kollektivi sifarişdən asılı olaraq gün ərzində 3 növbə işləyə bilir. Texniki təhlükəsizlik məsələləri ilə əlaqədar fəhlələr üçün qısamüddətli kurslar təşkil edilir, maarifləndirici tədbirlər görülür. Bir sözlə, burada hər bir işçi diqqət və qayğı ilə əhatə olunmuşdur. Bunlar isə müəssisənin iqtisadi göstəricilərində öz əksini tapır. Həmişə olduğu kimi, kollektiv cari ilin 9 ayını da yaxşı nəticələrlə yola salmışdır. Ötən müddət ərzində müəssisədə 162,7 kilometr rels qaynaq edilmişdir ki, bu da tapşırığa əməl olunması deməkdir.

*Seyran CAVADOV, "Azərbaycan"*

# Daha bir ucqar kəndə təbii qaz verilib



Qozağacı Siyəzənin ucqar kəndlərindəndir. Sovet dönəmindən bu yaxınlaradək kənddə təbii qaz yox idi. Nəhayət, kəndlilər bu günlərdə öz arzularına qovuşublar - kəndə təbii qaz verilib.

"Azəriqaz" İstehsalat Birliyi tərəfindən Qozağacıya birpilləli sistem əsasında ümumi uzunluğu 16 558 metr olan müxtəlif diametrli metal və polietilen borularla daşıyıcı və məhəllədaxili qaz xətləri çəkilib, sayğac və fərdi tənzimləyici quraşdırılıb. Birpilləli sistem hər bir abonentin fərdi qaztənzimləyicidən istifadə etməsinə və istehlakçılara ötürülən qazın sabit rejimdə saxlanılmasına imkan verir. Onu da bildirək ki, Qozağacı kəndinə qazın çəkilişi ətrafda yerləşən digər yaşayış məntəqələrinə də təbii yanacağın verilməsinə imkan yaradır.

*Akif ƏLİYEV, "Azərbaycan"*

# Yunanıstanın Saloniki şəhərində "Əbədi Ezamiyyət" filmi nümayiş etdirilib






Azərbaycanın Yunanıstandakı səfirliyinin, "Qala" Yunan-Azərbaycan Dostluq Cəmiyyətinin və Saloniki bələdiyyəsinin birgə təşkilatçılığı ilə Saloniki şəhər kitabxanasında "Əbədi Ezamiyyət" filmi nümayiş etdirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Saloniki şəhər bələdiyyəsinin, Salonikidə fəaliyyət göstərən konsulluq korpusunun təmsilçiləri, Aristotel və Makedoniya universitetlərinin rəhbərliyi, Azərbaycan icmasının üzvləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Azərbaycanın Yunanıstandakı səfirliyinin müvəqqəti işlər vəkili Eldar Əliyev tədbirdə çıxış edərək bu il Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinin qeyd olunduğunu bildirib. O, Azərbaycan Xalq Cümhuriyyətinin diplomatlarının ölkəmizin müstəqilliyinin tanıdılması istiqamətində gördüyü işlərdən bəhs edib, cümhuriyyətin 23 ay sonra bolşevik işğalı nəticəsində süquta uğraması barədə məlumat verib. Diplomat müsəlman Şərqində ilk demokratik respublika olan AXC-nin 100 illiyinə həsr olunmuş tədbirin demokratiyanın doğulduğu dost Yunanıstanda Saloniki bələdiyyəsi ilə birgə keçirilməsindən məmnunluğunu ifadə edib. O, həmçinin dünyada Azərbaycan həqiqətlərinin tanıdılması işində xaricdə yaşayan hər bir soydaşımızın fəallıq göstərməsinin zəruriliyini vurğulayıb.

# Səhiyyə Nazirliyi və "Regional İnkişaf" İctimai Birliyi Dünya Diabetlə Mübarizə Gününə həsr olunmuş aksiya keçirib

Noyabrın 13-də Dünya Diabetlə Mübarizə Günü ilə əlaqədar Tovuz, Qazax, Masallı və Lənkəran rayonlarının mərkəzi xəstəxanalarının poliklinikalarında "açıq qapı günü" keçirilib.

AZƏRTAC xəbər verir ki, Səhiyyə Nazirliyi və Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkil etdiyi aksiya çərçivəsində həkim-endokrinoloqlar sakinləri diabet, onun risk amilləri, müalicəsi və fəsadları barədə məlumatlandırıb, müxtəlif maarifləndirici materiallar paylanıb. Həmçinin müraciət edənlərdən şəkərin təyini ilə bağlı analizlər götürülüb və nəticələrdən asılı olaraq lazımi tövsiyələr verilib.

Xatırladaq ki, Dünya Səhiyyə Təşkilatı və Beynəlxalq Diabet Fondunun təşəbbüsü ilə 14 noyabr 1991-ci ildən Dünya Diabetlə Mübarizə Günü kimi qeyd olunur. 2006-cı ildə isə BMT Baş Assambleyası şəkərli diabetlə bağlı qətnamə qəbul edib. Məqsəd ictimaiyyəti xəstəliyin səbəbləri, simptomları, fəsadları və müalicəsi barədə məlumatlandırmaq, inkişafının qarşısının alınması yollarını araşdırmaqdır.

Azərbaycanda diabetə qarşı mübarizə məqsədilə "2016-2020-ci illər üçün şəkərli diabet xəstəliyi üzrə Dövlət Proqramı" qəbul olunub. Proqram çərçivəsində şəkərli diabet xəstəliyinin profilaktikası, müalicə və reabilitasiyası, şəkərli diabet xəstələrinin vahid elektron registrinin və məlumat bazasının təkmilləşdirilməsi, onların dərman preparatları, özünənəzarət vasitələri ilə davamlı təmin edilməsi və digər tədbirlər həyata keçirilir.

# Musiqi ilə danışan könüllər...

Araşdırmalar təsdiq edir ki, görmə qabiliyyətindən məhrum insanların beyni sağlam insanlardan daha sürətlə işləyir, onlar daha iti düşünür və yaxşı eşidirlər. Yəqin, elə bu səbəblərdən görmə qabiliyyəti məhdud adamlar musiqi ilə çox asan "dil tapa", musiqinin rənglərini, çalarlarını daha aydın "görə" bilirlər.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Baki Şəhər Mədəniyyət Baş İdarəsinin Gözdən əlil uşaqlar üçün 38 nömrəli onbirillik musiqi məktəbinin şagirdləri də özlərinə musiqini qəlb yoldaşı, ürək sirdaşı, ən gözəl həmsöhbət seçiblər. Musiqi bələdçiləridir, könül dünyalarına qədəm qoymalarına, onun hər rəngini, hər çalarını görə bilmələrinə yardım edir.

Bu musiqi ocağında 185 nəfər şagird oxuyur. Onların təhsili ilə 44 pedaqoq məşğul olur. Məktəbin müəllimləri Aliyə Zeynalova, Vüsal Qəhrəmanov, İsmayıl İsmayılov, İmaməli İmaməliyev, Sevinc Məmmədova, Elvira Məmmədova, Nailə Şeyxzamanova və başqaları şagirdlərin inkişafında bacarıqlarını əsirgəmirlər. Məktəbdə tar, kamança, qarmon, nağara, fortepiano, kanon, skripka musiqi alətləri və xanəndəlik tədris olunur.

Məktəbin direktoru Əsab Əliyev tədris ocağının yaranması haqqında məlumat verir: "Bu təhsil müəssisəsi 1980-ci ildə Azərbaycan Korlar Cəmiyyətinin sabiq sədri Arif Zeynalov tərəfindən cəmiyyətin nəzdində ixtisaslaşdırılmış musiqi məktəbi kimi yaradıldı. "1993-cü ildə respublikamızın hər yerində olduğu kimi, Azərbaycan Korlar Cəmiyyətində də iqtisadi vəziyyət çətinləşdi və məktəbin bağlanma təhlükəsi yarandı. Arif müəllimin təşəbbüsü ilə həmin il bu məktəb Mədəniyyət Nazirliyinin balansına verildi".

Əsab Əliyev özü də bu məktəbin yetirməsi olduğunu söyləyir: "Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli respublika xüsusi internat məktəbində təhsil almağa başladım. Bir qədər gec, on iki yaşında gəldiyim üçün uyğunlaşmağım çətin oldu. Oradan nə zaman həmişəlik çıxıb öz rayonumuza, Zaqatalaya qayıdacağımı düşünürdüm. Sonra bu musiqi məktəbi açıldı. Mən həm də burada tar sinfində oxudum. Musiqi mənim sənət və həyat yolumu cızdı. 1988-1992-ci illərdə Asəf Zeynallı adına Musiqi Texnikumunda, 1992-1997-ci illərdə isə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında təhsil aldıqdan sonra burada müəllimlik fəaliyyətinə başladım. 2008-ci ildə məktəbin ilk direktoru, mənim müəllimim olmuş Murtuz Mehdiyev dünyasını dəyişdi. Həmin ildən onun işlərini davam etdirirəm. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə 2008-ci ildə Gözdən əlil uşaqlar üçün 38 nömrəli onbirillik musiqi məktəbi yenidən, əsaslı şəkildə təmir edildi. Bu cür qayğıdan sonra biz də rahat otura bilməzdik. Bakı Musiqi Akademiyasından, Milli Konservatoriyadan, Bakının musiqi məktəblərindən təcrübəlli müəllimlər dəvət etdik, tədrisin keyfiyyətinin yüksəlməsi istiqamətində irəliləyişlərə, yeniliklərə nail olduq".

Əsab Əliyev qeyd edir ki, məktəbin uğurları az deyil. Şagirdlər istər yerli, istərsə də əcnəbi ölkələrdə keçirilən tədbirlərdə uğurla çıxış edirlər: "İstər Mədəniyyət, istər Əmək və Əhalinin Sosial Müdafiəsi, istərsə də Gənclər və İdman nazirliklərinin keçirdiyi festivallarda bizim uşaqlar uğurla çıxış ediblər, laureat, diplomant olublar. Bundan əlavə, hər il Mədəniyyət Nazirliyinin dəstəyi ilə şagirdlərimiz 23 aprel Uşaq bayramında və Moskvada "Belaya trost" müsabiqəsində uğurla çıxış edirlər".





Şagirdlər əsasən sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli respublika xüsusi internat məktəbindən qəbul edilirlər. Əsab müəllim gələcəkdə məktəbdə nəfəsli və simli alətlərin tədris olunmasını arzulayır.

Məktəbdə gələcəyinə böyük ümidlər bəslənən şagirdlər çoxdur. Müəllimləri inanırlar ki, Məhəmməd Abışov (qarmon), Ağaməli Niftəlizadə (kamança), Gülnaz Talıbova (fortepiano), Nazə Hacıyeva (fortepiano) və digərlərinin səsi ali məktəblərdən gələcək.

Bu istedadlı şagirdlərdən ikisi ilə söhbətləşirik.

## *İlk solo konsertin sevinci*

Məktəbin 11-ci sinif şagirdi Məhəmməd Abışov 2001-ci ildə Abşeron rayonunun Masazır qəsəbəsində dünyaya gəlib. İki qardaşın böyüyüdür. 2007-ci ildən sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat məktəbində təhsil alır. Bu musiqi məktəbinə isə 2008-ci ildə daxil olub.

Məhəmməd musiqiyə kiçik yaşlarından maraq göstərdiyini deyir: "Evimizdə piano var idi. Beş yaşımdan televizordan eşitdiyim nəğmələr həmin musiqi alətində ifa etməyə çalışırdım. Musiqiyə marağım sonsuzdur. Bu məktəbdə qarmonun sirlərini Vüsal Qəhrəmanovdan öyrənirəm. Qardaşım Sənan isə bu məktəbin pianino sinfində təhsil alır. Müəllimlərim ritm qabiliyyətimin yaxşı olduğunu deyirlər".

Məhəmmədin fikrincə, əsl musiqiçi dinləyicilərini duymalı, onların zövqünü oxşamalıdır. Xalq mahnılarımızı, muğamlarımızı, xüsusilə də "Segah"ı qarmonda dinləməyi sevən Məhəmməd üçün musiqi ömürlük bağlanacağı sənətdir. O, təhsilini Milli Konservatoriyada davam etdirmək arzusundadır. İndiyədək respublika müsabiqələrinin laureatı, festivalların iştirakçısı olub. 2017-ci ildə isə Rəşid Behbudov adına Mahnı Teatrında solo konserti keçirilib.

## *Gələcəyin musiqiçisi*

Həmsöhbətim - Nazə Hacıyeva isə musiqi məktəbinin 9-cu sinfində oxuyur. Nazə 2002-ci ildə Bakı şəhərində dünyaya gəlib. İki bacıdırlar. Dörd yaşlı bacısı Fatimənin sağlamlığında problem yoxdur.

Nazənin də musiqi sevdası kiçik yaşlarından bəlli olub. O, oyuncaq pianosunda musiqilər ifa etməyi xoşlayırmış. 5 nömrəli respublika xüsusi internat məktəbində təhsil aldığı vaxtlarda da bu istəyi azalmayıb. Ona görə musiqi məktəbində oxumağı qərara alıb. Nazə danışır: "Burada Aliyə müəllimə mənim bacarığımı kəşf etdi. O həm də kədərimə və sevincimə şərik oldu. Məndən yorulub "daha bəsdir" demədi. Özüm də həyatda mübariz olmağa çalışıram. Çox məşğul olur, dünya və Azərbaycan bəstəkarlarının əsərlərini öyrənirdim, sonra öz bəstələrim yaranmağa başladı..." Əvvəlcə bunu nota köçürmürdü. Amma hiss edirdi ki, gözəl şeylər yaranır. Bir gün bəstələrini əvvəlcə şagird yoldaşı və rəfiqəsi Gülnaza, daha sonra özündə cəsarət tapıb müəlliminə ifa etdi. Onlar bəyəndilər və Nazə bəstəkar olacağını qarşısına məqsəd qoydu. Hazırda öz musiqilərinə sözlər də yazmağa başlayıb. Arzuları çoxdur. Amma hələ ki yaxın planlarından danışır: "Rəfiqəm Gülnaz da mənim kimi fortepiano sinfində oxuyur və musiqilər bəstələyir. Onunla gələn ilin iyun ayında öz musiqi məktəbimizdə konsert verməyi qərara almışıq. Uğurlu alınsa, böyük konsert salonlarında çıxış etməyi düşünmək olar. Konsertdə dünya və Azərbaycan bəstəkarları ilə yanaşı, özümüzün də bir neçə musiqimizi təqdim etmək fikrindəyik. Başqa yeniliklərimiz də olacaq".

Məhəmməd də, Nazə də boş vaxtlarını musiqiyə həsr etdiklərini söyləyirlər. Deyirlər ki, musiqi ilə öz dünyalarına daxil ola bilirlər. Nazə öz dünyasını belə təsvir edir: "Hər yerdə musiqi səslənir. Hər şeyin öz musiqisi var. Və o musiqi ancaq gözəllikdən və sevgidən danışır..."

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

14 noyabr Dünya Diabetlə Mübarizə Günüdür

# Zəhərli ŞƏKƏR




## *Ölkəmizdə 260 min nəfərin yoluxduğu bu mərəz sürətlə cavanlaşır*



*- Təəssüf ki, bütün ömrümü onunla qoşa keçirmişəm. Uşaqlıq xatirələrimə də, sevinmək istədiyim, xoşbəxt olmaq istədiyim hər anıma da kölgə salıb. Addım-addım izləyib məni, boğulmuşam, sıxılmışam, amma nə qədər istəsəm də, qaçıb qurtula bilməmişəm. Çünki bu mənim alnıma yazılmış adı şəkər, özü isə zəhərdən də betər olan bir xəstəlik idi...*

*41 yaşlı İsa Verdiyev illərdir əziyyət çəkdiyi şəkərli diabet xəstəliyinin həyatında necə ağrılı və acımasız izlər buraxdığından danışır. Deyir ki, xəstəlik ona genetik keçib, atası da, qardaşı da şəkərli diabetdir. Uşaq ikən valideynlərinin diqqəti sayəsində bu xəstəliyi elə də hiss etmir, ciddiliyinin fərqinə varmırmış. Amma böyüdükcə xəstəliklə barışa bilmir, əsəbləri tab gətirmir: "Elə hey özümə sual verirdim ki, mən niyə bu xəstəliklə yaşamalıyam?! Məndə xəstəliyə qarşı bir aqressiya yaranmışdı və sanki onun acığına pəhrizimi gözləmir, vaxtlı-vaxtında müayinə olunmurdum. Təbii ki, gənc idim və bu üsulla xəstəliyi məğlub edəcəyimə inanırdım..."*

*Amma xəstəlik çox amansız olur və etdiyi bu səhvləri nəinki bağışlamır, hətta onu dünya işığına belə həsrət qoyur: "Hər iki gözümü, böyrəklərimi itirdim, indi anamdan mənə köçürülən böyrəyin hesabına yaşamağa çalışıram..."*

*Deyir ki, əslində bütün bu zillətlərə düçar olmasının səbəbi xəstəlik yox, elə onun özü olub: "Çox peşmanam, səhvlərimin ucbatından itirdiyim sağlamlığım üçün. Amma bilirəm ki, onu heç zaman geri qaytara bilməyəcəyəm..."*

## *Sürətlə artan dəhşətli statistika*

Hazırda dünyada 300 milyona yaxın insan şəkərli diabetdən əziyyət çəkir. Bu xəstəliyin profilaktikası və müalicəsi vaxtında aparılmasa, çox ciddi fəsadlar törədir. Böyük sürətlə yayılan xəstəlik ciddi sosial-tibbi problemlər yaradaraq hətta ölkələrin iqtisadiyyatına, ailələrin maddi durumuna təsir edir.

Hələlik illərdir aparılan tibbi araşdırmalar, tətbiq edilən müalicələr, məsləhət görülən dərmanlar bu xəstəliyin tam sağalmasına çarə qıla bilməyib. Və yaxın 20 ildə də bu xəstəlikdən dünyasını dəyişən insanların sayının iki dəfə artacağı gözlənilir. Dünya Səhiyyə Təşkilatının (DST) proqnozlarına görə, diabetdən əziyyət çəkənlərin sayı 2040-cı ilə qədər artaraq 642 milyon nəfərə çata, həmçinin 2030-cu ilədək diabetdən dünyasını dəyişənlərin sayı iki dəfə arta bilər.

## *İnsulinin kəşfi və mavi dairə...*

Odur ki, insanların ömürlərinin azalmasına səbəb olan bu xəstəliyə diqqətin cəlb olunması məqsədilə 1991-ci ildən DST-nin və Beynəlxalq Diabet Federasiyasının tövsiyələrinə görə, 14 noyabr tarixi Dünya Diabetlə Mübarizə Günü kimi qeyd edilir. BMT-nin Baş Məclisinin 2006-cı il dekabrın 20-də qəbul etdiyi qətnaməyə əsasən Dünya Diabetlə Mübarizə Günü 2007-ci ildən başlayaraq BMT-nin rəsmi günü elan edilib. Bu gün insulini kəşf edən Frederik Bantinqin anadan olduğu gündür. O, Çarlz Best ilə 1922-ci ildə insulini kəşf etməklə diabetli insanların müalicəsində yeni bir mərhələnin başlanğıcını qoyub.

Dünya Diabetlə Mübarizə Gününün emblemi olan mavi dairə şəkərli diabet ətrafında hamının birləşməsini simvolizə edir. Hər il müxtəlif şüar altında keçirilən Dünya Diabetlə Mübarizə Gününün dəyişilməz amalı belə səslənir: "Güc birlikdədir!" Həmin gün ictimaiyyət xəstəliyin səbəbləri, simptomları, fəsadları və müalicəsi ilə bağlı məlumatlandırılır, xəstəliyin inkişafının qarşısının alınması yolları araşdırılır.

## *Çox adam şəkərli diabet olduğundan xəbərsizdir*

Azərbaycanda cari ilin yanvarına olan məlumatlara görə, qeydiyyatda təxminən 243 min diabet xəstəsi olub. Lakin avqust ayında aparılan yoxlama zamanı bu sayın 260 min nəfərə qalxdığı məlum olub ki, onlardan da 1500-ə yaxını (18 yaşa qədər) uşaqlardır. Bununla yanaşı, hər yaş qrupundan olan diabet xəstələri var. Onlardan 10 faizi 1-ci, 80-90 faizi isə ikinci tip şəkərli diabetdir.

Milli Məclisin deputatı, tibb elmləri doktoru, professor, respublikanın baş endokrinoloqu Rafiq Məmmədhəsənov deyir ki, 40 yaşına qədər olan insanlarda adətən birinci tip şəkərli diabet olur. Burada insulin ya tam olmur, ya da cüzi miqdardadır. Bu da karbohidrat, yağ və digər mübadilələri pozur və ona görə də diabetə mübadilə pozğunluğu xəstəliyi deyirlər. Burada genetik faktorların da, infeksiyanın da rolu çoxdur. İkinci tip diabet isə 40 yaşından sonra ortaya çıxır və bu diabet yüngül gedişə malik olur. Öz müalicəsi üçün əksərən insulin istəmir, pəhrizlə, həblərlə müalicə olunur, çox arıqlamağa imkan vermir: "Şəkərli diabetin ən çox rast gəlinən klassik simptomları çox su içmə, sidiyə getmə, yemə və kəskin arıqlamadır. Bunların çoxu ikinci tipdə olmur. Əlamətlərdən hansısa olur, amma hökm deyil ki hamısı bir arada olsun. Ona görə də insanların çoxu şəkərli diabet olduğunu bilmir. Bu, təsadüfi yoxlama zamanı üzə çıxır".

## *İnsan orqanizmində zədələmədiyi orqan qalmır*

Baş endokrinoloqun sözlərinə görə, şəkərli diabet genetik xəstəlikdir. Əgər uşaq doğulanda valideynlərin hər ikisi diabetdirsə, uşağa ötürülmə ehtimalı 30-50 faizə qədərdir. Təkcə anada olanda 5, atada olanda isə 10 faiz olur ki, bunun da başvermə, törəmə səbəbini hələ ki elm bilmir. Uşaqlara genetik meyil ötürülür, amma onun meydana çıxması üçün şərait lazımdır, məsələn, stress kimi: "Diabet ömürlük xəstəlikdir, ona yaxşı qulluq etməsən, ağırlaşmaları olur. Məsələn, gözdən əlil olanların 25, aşağı ətrafları kəsilmiş, amputasiya olunmuş şəxslərin 25-30, hemodializə gedən xəstələrin 40-50 faizi diabetin payına düşür. Demək olar ki, diabetin insan orqanizmində zədələmədiyi toxuma qalmır".

Professor deyir ki, hazırda şəkərli diabetin ən çox səbəbi oturaq həyat tərzi, piylənmə, stress kimi faktorlardır. Məsələn, xroniki stress şəkərə səbəb olur ki, onu mütəmadi hərəkətlə - gəzməklə, üzməklə yandırmaq lazımdır: "Müasir insanlar karbohidratlı qidalardan çox istifadə edirlər. Keçmişdə tortu, şəkərburanı ancaq varlı adamlar yeyərdi, ona görə də buna "varlıların xəstəliyi" deyirdilər. Hesablayanda görürsən ki, bir nəfərə il ərzində az qala yarım, 1 kisə şəkər tozu düşür. Keçmişdə belə tələbat, həm də təminat yox idi".

Bir müəllimimiz var idi, məktəbi 30-cu illərdə bitirmişdi. Deyirdi ki, o zaman bir şəkərli diabet xəstəsi tapıb bizə göstərə bilmədilər ki, bax diabet belə olur. Amma indi təkcə Azərbaycanda 260 min şəkərli diabet xəstəsi var.

Həmçinin ən çox inkişaf etmiş ölkələrdə bu xəstəlik kütləvi yayılır. Bu göstərici, məsələn, Amerikada 7 faizdir, hətta bəzi ştatlarda 10 faizə çatır, yəni ümumi əhalinin 10 faizi diabetdir. Məsələn, Amerika əhalisi piylənmədən əziyyət çəkir ki, piylənmənin də yoldaşı elə şəkərli diabetdir. İngiltərədə əhalinin 7 faizə qədəri, həmçinin digər ölkələrdə 4-5 faizi şəkərli diabetdir, Hindistanda isə bu say daha çoxdur. Elə yerlər də var ki, məsələn, ekvatora yaxın, Qvineya-Bisau, Papua-Yeni Qvineya qəbilələri diabetin nə olduğunu bilmirlər, genlərində belə bir xəstəlik yoxdur".

## *Bu xəstəlik ailələrin dağılmasına belə səbəb olur*

Hər iki tip şəkərin müalicəsini aparanda burada əsas pəhriz müalicəsi də olmalıdır. Baş endokrinoloq Rafiq Məmmədhəsənov deyir ki, birinci tip ağır gedişli olur və insulin tələb edir, ikinci tip diabet yüngül, orta ağır və ağır gedişli ola bilər: "Bəzən də olur ki, yaşlı adamlarda birinci tip kimi ağır olur, bəzən isə cavan adamlarda ikinci tip kimi gedir, insulin istəmir. Onlara təyin olunan pəhriz də müxtəlifdir və burada qidanın ümumi kalorajı hesablanmalıdır. Təxminən karbohidratlı qidalar 60, yağlar 20, zülallar 20 faiz təşkil etməlidir. Kaloraj hesablanarkən xəstənin sənəti, gördüyü iş, xəstəliyinin ağırlıq dərəcəsi, tipi nəzərə alınır və müalicə təyin olunur. Bu xəstələr xəmir xörəkləri, makaron, vermişel, üzüm, yemiş, qarpız, baldan uzaq durmalıdır. Bəziləri deyir ki, baldan istifadə etmək olar, amma bu, yanlışdır, çünki bal asanlıqla həzm olunur və qanda şəkərin səviyyəsini oynadır".

Professor Rafiq Məmmədhəsənov qeyd edir ki, indi insanlar şəkərli diabetə tutulanda çox narahat olurlar ki, bu, ölümdür, əslində isə belə deyil. Şəkərli diabet yaşam və həyat tərzidir, onunla yaşamağı bacarmaq lazımdır. Məsələn, müsbət emosiya qanda şəkərin səviyyəsini aşağı salır. Elm inkişaf etdikcə şəkərin müalicəsi üçün də yeni imkanlar yaranır. Əvvəllər yalnız bu xəstələr insulinlə müalicə edilirdi, indi həblər, şəkər ölçən aparatlar var ki, endokrinologiyanın inkişafında əsas amillərdir: "Xəstələrim var ki, 45 ildir yanıma gəlib-gedirlər, normal insanlar kimi həyatlarını davam etdirirlər. Məsələn, 2 yaşlı qız şəkərli diabet idi, o böyüdü, ailə qurdu, hətta nənə də oldu. Yəni bu xəstəliyə diqqət etsən, ona uyğun davransan, fəsadları ağır olmur. Onu da demək istəyirəm ki, gənclər ailə qurduqları şəxsin diabet olub-olmaması ilə bağlı məlumatlı olmalıdır. Bunun özü də bir faciədir, xəstəlik övladlara da keçir, cürbəcür fəsadlar ortaya çıxır, hətta ailə də dağılır..."

## *Dövlət diabetlə mübarizəyə ildə təxminən 45 milyon manat pul ayırır*

Deputat məlumat verdi ki, MDB məkanında şəkərli diabet xəstələrinə dövlət qayğısı haqqında ilk qanun Azərbaycanda qəbul olunub. Bu gün də həmin qanun işləyir. Xəstələr pulsuz dərmanla təmin olunur, insulin, şəkərölçən çubuq, aparat alırlar. Hər il dövlət tərəfindən diabetlə mübarizəyə təxminən 45 milyon manat vəsait ayrılır. Gələn ilin dövlət büdcəsində də eyni həcmdə - 44,3 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub.

Bununla yanaşı, səhiyyə naziri əmr verib ki, poliklinikaya, xəstəxanaya müraciət edən hər bir vətəndaşın qanda şəkəri yoxlanılsın və artıq bu, icbari tədbir kimi həyata keçirilir. Alınan insulinlər isə yüksəkkeyfiyyətli, Avropadan alınan insulinlərdir və sovetdən qalma dərmanlar yoxdur.

Onu da qeyd edək ki, Milli Məclisdə 2019-cu ilin dövlət büdcəsi zərfinə daxil olan sənədlərin müzakirəsi zamanı qeyd edilib ki, ölkədə şəkərli diabet və xroniki böyrək çatışmazlığından əziyyət çəkən xəstələrin sayının artması və istifadə olunan dərman vəsaitlərinin əksəriyyətinin xaricdən alınması məqsədilə dövlət büdcəsində bu xəstəliklərin müalicəsi üzrə tədbirlərə əlavə olaraq 15 milyon manat vəsait nəzərdə tutulub.

## *Psixoloji gərginlik onları uçuruma sürükləyir*

Bu bir reallıqdır ki, şəkərli diabetdən əziyyət çəkən xəstələrin psixologiyası tamamilə gərgin olur və hər an dəstəyə ehtiyac duyurlar.

Tibb Universiteti Tədris Terapevtik Klinikasının Endokrinologiya şöbəsində müalicə alan 61 yaşlı Raya Allahverdiyeva ikinci tip şəkərdir və deyir ki, 2000-ci ildə güclü stress keçirdiyi üçün bu xəstəliyə düçar olub: "O zaman oğlumun qar uçqununa düşməsi ilə bağlı xəbər gəldi və mən çox qorxdum. Günü-gündən halım pisləşirdi və əvvəlcə bunun böyrəyimdə olan narahatlıqla əlaqədar olduğunu düşündüm, amma müayinədən sonra şəkər olduğunu öyrəndim".

Raya xanım deyir ki, o gündən bu xəstəliyə öyrəşərək yaşamağa başlayıb: "Bu xəstəliyə alışmaq çox çətin idi. Əgər ailəm, övladlarım mənə dəstək olmasaydı, indi heç bilmirəm yaşayardımmı?!"

Sevinc İsmayılova isə 17 yaşındadır və birdən-birə kəskin arıqlaması səbəbi ilə müayinə olunduqda şəkərli diabet olduğunu öyrənib: "Mən arıqlamağımı imtahana hazırlaşma stresi ilə əlaqələndirirdim, amma nənəmdə də bu xəstəlik olduğu üçün şübhələndik və müayinə olundum. Təəssüf ki, şübhələrimiz doğru idi və mən ömür boyu bu xəstəliklə yaşamağa mübtəla olmuşdum. Hələ də bu gerçəkliyə özümü alışdıra bilmirəm..."

## *Əgər xəstə bu fəsadın tərəfində dursa, həkimi təkləmiş olacaq...*

Klinikanın endokrinologiya şöbəsinin müdiri Könül İsmayılova bizimlə söhbətində bildirdi ki, gənclərdə adətən şəkər insulin tələbli olur. 90 faiz hallarda, yəni xəstəyə diaqnoz qoyulduqdan sonra insulin vurulması məcburi olur: "Bu cür xəstələrə ilkin diaqnoz qoyulanda, əlbəttə ki, stress keçirirlər. Onların psixoloji dəstəyə çox ehtiyacı olur. Çünki insulin antibiotik müalicəsi deyil ki, 5-10 gün olsun. Əgər birinci tipdirsə, ömrünün axırına qədər belə yaşayırlar. Bu zaman həkim, xəstə, xəstənin ailəsi və lazım olarsa, psixoloq bir yerdə addımlamalıyıq. Adətən xəstələrə deyirəm ki, bizim müalicəmizdə 3 faktor var: Həkim, xəstəlik və xəstə. Xəstə hansının tərəfində dursa, o birisini təkləmiş olacaq. Əgər xəstə xəstəliyin tərəfində dursa, həkimi təkləmiş olacaq. Onun yazdığı müalicədən də heç bir nəticə olmayacaq".

Xəstəliyin böyük hissəsinin irsi xarakterli olmasını vurğulayan həkim söyləyir ki, xüsusilə ailə anemnezi olan, hamiləlik dövründə şəkərləri yüksək olan, yüksək döl dünyaya gətirmiş analar daha diqqətli olmalıdır. Yüksək çəki ilə doğulmuş uşaqların anaları 90 faiz hallarda hamiləlik dövründə şəkər mübadiləsi pozulmuş qadınlar olur. O qadınların yaxın illər ərzində 50 faizi aşkar şəkərli diabet olur: "İkinci tip diabetə yaşlıların xəstəliyi deyirik, amma hazırda bu tipin cavanlaşması gedir. Hazırda gənclərdə təkcə birinci tip deyil, digər diabetlərə də rast gəlirik ki, bunun da səbəbləri arasında, çox güman ki, ekologiyanın, geni dəyişdirilmiş ərzaq məhsullarının təsiri çoxdur".

## *Qurtuluş mümkündür, amma...*

Bəli, təəssüf ki, bu "dadlı" xəstəliyin cənginə keçənlərin sayı durmadan artır. Heç bir yaş həddi tanımır, insanları özünün əsirinə çevirir. Xəstəliklə barışmayanlara, onunla mübarizə aparmaq istəyənlərə isə zillət çəkdirir.

Şəkərli diabet təkcə xəstəlik deyil, insanların ömür boyu yaşamağa məhkum olduğu bir rejimdir. Amma sanmayın ki, ondan yaxa qurtarmaq, əziyyətlərindən azad olmaq mümkün deyil. Mümkündür, o halda ki, şəkərin dostu ola, tələb etdiyi bütün qaydalara zamanında və düzgün əməl edə, onunla yaşamağı həyat tərzinə çevirməyi bacarasan.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin Beynəlxalq nümayəndəliklərin açılması və fəaliyyəti üzrə xidmətlərin satın alınması ilə əlaqədar 02 noyabr tarixində elan etdiyi Təkliflər sorğusu proseduru üzrə təklif zərflərinin qəbulu tarixi 19 noyabr 2018-ci il saat 12:00-a qədər uzadılmışdır.

*Tender komissiyası*

## "Azərlotereya" Açıq Səhmdar Cəmiyyəti *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

LOT1. Lotereya biletlərinin satışının təşkili.

Tender iştirakçılarına təklif edilir ki,"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, yuxarıda göstərilən LOT üzrə tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: *aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti.*

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Təbriz küçəsi, 79 ("Azərlotereya" Açıq Səhmdar Cəmiyyəti) ünvanından (Əlaqələndirici şəxs: Abbasov Rüfət Rasim oğlu, telefon: 514 47 01/02) ala bilərlər.

**LOT-1-300 (üç yüz) manat**
**Hesab: AZ90PAHA38090AZNHC0190003900**
**VÖEN: 1300053151**

**Bank: "PAŞA Bank" ASC**
**Kodu: 505141**
**VÖEN: 1700767721**
**Müxbir Hesab: AZ82NABZ01350100000000071944**
**SWIFT Code: PAHAAZ22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

* *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
* *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
* *tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
* *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır).*
* *Azərbaycan Respublikasının vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
* *iddiaçıların son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
* *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
* *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 14 dekabr 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 24 dekabr 2018-ci il saat 18:00-a qədər Bakı şəhəri, Təbriz küçəsi, 79 ("Azərlotereya" Açıq Səhmdar Cəmiyyəti) ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 25 dekabr 2018-ci il tarixdə saat 11:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

## BİLDİRİŞ

Dövlət Radiotezliklər İdarəsi tərəfindən 31.10.2018-ci il tarixdə "Bakutel-2018 Beynəlxalq sərgi və konfransında" iştirak etmək üçün Baku Ekspo Mərkəzində xüsusi dizayna uyğun olaraq stendin hazırlanması, müxtəlif reklam işlərinin görülməsi, stendin montajı, videowall monitorlarının quraşdırılması, işıqlandırma və səsləndirmə sistemlərinin quraşdırılması, sərgidən sonra stendin demontajı və daşınması xidmətlərinin açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə "Hundran MMC" qalib elan olunmuşdur.

*Tender komissiyası*

**Beynəlxalq aləm**
HADİSƏLƏR, FAKTLAR

## Kaliforniya təbii fəlakət zonası elan olundu

Kaliforniyada tüğyan edən meşə yanğınları üzündən ABŞ Prezidenti Donald Tramp bu ştatı təbii fəlakət zonası elan etmişdir. Bu barədə o, Twitterdəki mikrobloqunda yazmışdır: "Mən ağlasığmaz əzab-əziyyətləri yüngülləşdirmək üçün operativ şəkildə reaksiya vermək istədim".

Bu arada Kaliforniyada fəlakət qurbanlarının sayı 44 nəfərə çatmışdır. Onlardan 42-si ştatın şimalında yerləşən Paradays şəhərinin yaxınlığında yanğın nəticəsində həlak olmuşdur. Daha iki meyit sahilyanı Malibu şəhərində tapılmışdır.

Artıq bir həftədir davam edən yanğın Kaliforniya tarixində ən çoxsaylı tələfata səbəb olmuşdur. Yüzlərlə kvadratkilometr meşə sahəsi yanmış, minlərlə ev məhv olmuş, yüz minlərlə adam təxliyə edilmişdir. Noyabrın 8-dən bəri davam edən təbii fəlakətin qarşısını almaq hələ də mümkün olmur.

## Yəməndə humanitar böhran dərinləşir



Davam edən müharibə və ərzaq qıtlığı ucbatından Yəməndə humanitar böhran dəhşətli miqyas almışdır. İki milyona yaxın uşağımızın və hamilə qadın lazımi qədər qida ala bilmir. BMT-nin xüsusi fondunun (UNFPA) internet səhifəsində bildirilir ki, ölkədə dörd ildir davam edən vətəndaş müharibəsi səbəbindən hamilə qadınlar əziyyət çəkirlər. 1,1 milyon qadın kifayət qədər qidalanmır. Bu isə uşaq ölümünün artmasına səbəb olur.

Yəmənli qadınların və uşaqların əksəriyyəti gündə cəmi bir dəfə yalnız çörək və su ilə qidalanır. Ölkədə 22 milyon nəfərin humanitar yardıma ehtiyacı var.

Xatırladaq ki, dörd il əvvəl hövsilər paytaxt Sənanı ələ keçirmiş və vətəndaş müharibəsi başlamışdır. Minlərlə mülki şəxs həlak olmuş, milyonlarla adam lazımi qədər qidalana bilmir. Müharibə ilə yanaşı, ölkədə vaxtaşırı yoluxucu xəstəliklər baş qaldırır. Əhali ərzaq və dava-dərman qıtlığından əziyyət çəkir.

## Koalisiya Suriyanı bombaladı



Suriyanın Deyr əz-Zor əyaləti ABŞ-ın başçılıq etdiyi beynəlxalq koalisiyanın bombardmanına məruz qalmışdır. Nəticədə 60-dan çox dinc sakin həlak olmuş, yaxud yaralanmışdır. Bu barədə SANA agentliyi xəbər verir.

Bir müddət əvvəl xəbər verilmişdi ki, koalisiya hücum zamanı ağ fosfordan istifadə etmişdir. Son aylar Suriya hökuməti koalisiyanı bu cür döyüş sursatlarından istifadə etməkdə dəfələrlə ittiham etmişdir.

## MAQATE: "Tehran nüvə sazişini pozmur"



Beynəlxalq Atom Enerjisi Agentliyinin (MAQATE) rüblük hesabatında deyilir ki, İran 2015-ci il tarixli nüvə sazişinin nəzərdə tutduğu məhdudiyyətlərə riayət edir. Bu barədə "Assosiyeted Press" agentliyi xəbər verir.

Xatırladaq ki, Vaşinqton bu ilin mayında sazişdən birtərəfli şəkildə çıxmış, sonradan isə Tehrana qarşı təkrarən sanksiyalar tətbiq etmişdir. Bu addım isləm respublikasının iqtisadiyyatına mənfi təsir göstərmişdir.

Sazişin digər iştirakçıları - Almaniya, Böyük Britaniya, Fransa, Rusiya və Çin sazişin qüvvədə qalması üçün səy göstərirlər. Bundan əlavə, onlar İrana müxtəlif iqtisadi mənfəətlər təklif etməyə hazırdırlar.

MAQATE-nin yenilənmiş məlumatına görə, İrandakı aşağızənginli uran ehtiyatları beynəlxalq sazişin tələbinə uyğun olaraq əvvəlki vəziyyətdə saxlanılır. Həmçinin qeyd olunur ki, Tehran sazişin müəyyənləşdirdiyi çərçivədə uranın zənginləşdirilməsi səviyyəsinə riayət edir.

## Fransada son bir il ərzində altı terror aktının qarşısı alınıb

2015-ci ildə Parisdə baş vermiş terror aktlarının üçüncü ildönümü ərəfəsində Fransanın daxili işlər naziri Kristof Kastaner son vaxtlar ekstremizm təhlükəsi ilə mübarizə barədə hesabat vermişdir. Onun dediyinə görə, cari ilin əvvəlindən bəri ölkənin xüsusi xidmət orqanları altı terror aktının qarşısını almışdır. Terror təhlükəsi isə yüksək olaraq qalır.

Eyni zamanda nazir ötən il 13 hücum cəhdinin qarşısının alındığını xatırlatmışdır.

Dünən ölkədə terror aktları qurbanlarının anma mərasimləri keçirilmişdir. 2015-ci ildə Parisdə terrorçuların hücumları nəticəsində 130 nəfər həlak olmuşdur.

Paytaxt "Stad de Frans" stadionundan hadisə yerinədək matəm yürüşünün şahidi olmuşdur. Mərasimdə Fransanın Baş naziri Eduar Filipp, Paris meri Ann İdalqo, Sen-Deni meri Loran Rüssye və bir sıra digər məmurlar iştirak etmişlər. Sonra siyasətçilər terrorçuların hədəfinə çevrilmiş digər yerləri - "Le Carillon", "Le Petit Cambodge", "La Bonne Biere", "Comptoir Voltaire" və "La Belle Equipe" kafelərini ziyarət etmişlər. Marşrutun son nöqtəsi "Bataklan" konsert zalı olmuşdur.

## Komanda-qərargah hərb oyunları davam edir



Azərbaycan Ordusunun hazırlıq planına əsasən keçirilən komanda-qərargah hərb oyunları davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, döyüşü idarəetmə mərkəzində keçirilən növbəti toplantıda tapşırıqlar dəqiqləşdirilib və taktiki müdaxilələr üzrə fəaliyyətlər icra olunub.

Birbaşa videobağlantı vasitəsilə birlik və birləşmələrin vəzifəli şəxslərinin tapşırıqların icrasına dair məruzələri dinlənilib və onlara yeni tapşırıqlar çatdırılıb.

* * *

Əməliyyat hazırlığı çərçivəsində Azərbaycan Ordusunda keçirilən komanda-qərargah hərb oyunlarında Əlahiddə Ümumqoşun Ordu komandanının rəhbərliyi altında Naxçıvan Qarnizonu qoşunları da iştirak edir.

Komanda-qərargah hərb oyunlarının ssenarisinə uyğun olaraq, tam döyüşə hazırolma vəziyyətinə gətirilməsi üçün Naxçıvan Qarnizonu qoşunlarının idarəetmə məntəqələri və praktiki fəaliyyətə cəlb edilən bölmələri həyəcan siqnalı ilə qaldırılaraq təlim rayonuna çıxarılıb.

Təyin edilmiş ərazilərdə birləşmə və hissələrin səfərbərliklə komplektləşdirilməsi üçün şəxsi heyət və texnikaların qəbulu məntəqələri açılaraq, xüsusi ixtisaslar üzrə çağırılmış heyətin praktiki qəbulu həyata keçirilib.

Birləşmə və hissələrin idarəetməsini həyata keçirmək üçün ərazidə idarəetmə məntəqələri yaradılıb.

Noyabrın 16-dək davam edəcək komanda-qərargah hərb oyunlarında qarşıya qoyulmuş əsas məqsəd idarəetmə orqanlarının qarşılıqlı əlaqələrinin təkmilləşdirilməsi, qərargah və xidmətlərin vahid idarəetmə orqanı kimi uzlaşmasına nail olunmasıdır.

* * *

Komanda-qərargah hərb oyunları (KQHO) çərçivəsində hücum əməliyyatında qoşunların qarşılıqlı fəaliyyətinin, idarə olunmasının və hərtərəfli təminatının təşkili məsələləri məşq etdirilib.

Hərb oyunlarına cəlb edilən vəzifəli şəxslərin təlimin əməliyyat şəraiti ilə bağlı məruzələri dinlənilib, qoşun qruplaşmalarının hücum üçün ilkin vəziyyəti tutmasına nəzarət olunub.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Azərbaycan Rəssamlıq Akademiyasının rektoru, respublikanın xalq rəssamı Ömər Eldarova həyat yoldaşı

**ERNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov,
komissiyanın üzvləri və katibliyin rəhbərliyi Mərkəzi Seçki Komissiyasının üzvü İlkin Şahbazova əzizi

**ŞİRVAN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Səhiyyə Komitəsinin sədri Əhliman Əmiraslanov və komitənin üzvləri Azərbaycan Rəssamlıq Akademiyasının rektoru, akademik Ömər Eldarova həyat yoldaşı

**ERNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Ağalar Vəliyev Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya anası

**SÜSƏN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruzəli Aslanov Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarova anası

**QÖNÇƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Təlatüm Quliyev ailəsi ilə birlikdə yaxın dostu Firudin Kərimova anası

**ARİFƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya anası

**SÜSƏN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ombudsman Elmira Süleymanova Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarova anası

**QÖNÇƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Yeni Azərbaycan Partiyasının İcra Katibliyi katibliyin məsul işçisi Rafael Gülməmmədova atası

**ŞİRMƏMMƏD GÜLMƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Mərkəzi Seçki Komissiyasının üzvü Nizami Nadirova əzizi

**BƏDİRXAN HAQVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Rəssamlıq Akademiyasının rektoru Ömər Eldarova həyat yoldaşı

**ERNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Müdafiə Sənayesi Nazirliyinin rəhbərliyi və kollektivi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya anası

**SÜSƏN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Lətif Hüseynov Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya və Bakı Şəhər Prokurorluğu İstintaqa nəzarət şöbəsinin rəisi Tariyel Qurbanova anaları

**SÜSƏN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Əziz Əzizov və Yasamal Rayon İcra Hakimiyyəti başçısı aparatının kollektivi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya anası

**SÜSƏN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əziz Əzizov və Yasamal Rayon İcra Hakimiyyəti başçısı aparatının kollektivi Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarova anası

**QÖNÇƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Rəhman Salmanlı Mübariz Qurbanlıya anası

**SÜSƏN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ədliyyə Nazirliyi Penitensiar xidmətin rəhbərliyi və kollektivi Ədliyyə Nazirliyinin əməkdaşı Rəsul Mahmudova əzizi

**NİSƏXANIM XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Vergilər Nazirliyinin rəhbərliyi və kollektivi xalq rəssamı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Rəssamlıq Akademiyasının rektoru Ömər Eldarova həyat yoldaşı

**ERNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Vergilər Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədovaya əzizi

**ALİM BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Vergilər Nazirliyinin rəhbərliyi və kollektivi xalq artisti

**AMALYA PƏNAHOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Vergilər Nazirliyinin rəhbərliyi və kollektivi təhsil eksperti Etibar Əliyevə atası

**QASIM ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarova anası

**QÖNÇƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Seyid Lazım Ağa ocağı adından Yusif Ağa Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya anası

**SÜSƏN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi Azərbaycan Rəssamlıq Akademiyasının rektoru, respublikanın xalq rəssamı Ömər Eldarova həyat yoldaşı

**ERNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi respublikanın xalq rəssamı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Rəssamlıq Akademiyasının rektoru Ömər Eldarova həyat yoldaşı

**ERNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin Tarix fakültəsi Qədim dünya və Orta əsrlər tarixi kafedrasının professor-müəllim heyəti iş yoldaşları Rəna xanım Şahbazovaya atası

**ŞAMİL ŞAHBAZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qafqaz Müsəlmanları İdarəsinin rəhbərliyi və kollektivi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya anası

**SÜSƏN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıtdan Zakir Fərəcov Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya anası

**SÜSƏN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şabrandan Novruz Novruzov Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya anası

**SÜSƏN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şabrandan Novruz Novruzov Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarova anası

**QÖNÇƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt Dövlət Universitetinin rektorluğu və kollektivi universitetin Azərbaycan və Şərqi Avropa xalqları tarixi kafedrasının dosenti Əmirxan İsayevə

**ATASININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Etibar Babayev və Yaqub Əliyev dostları Mirəyyub Mirsultanova əzizi

**MİRNƏSİMİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İlqar Məmmədov Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya anası

**SÜSƏN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İsmayıllı Rayon Məhkəməsinin sədri Rəfayel Şirinov və məhkəmənin kollektivi Quba Rayon Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Xəqani Tağıyevə bacısı

**ULDUZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əzizulla Hüseynov, Qasım Qasımov və Fikrət Quliyev dostları Mirəyyub Mirsultanova əzizi

**MİRNƏSİMİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi prokurorluğun veteranı

**CAHANGİR NƏSİROVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Milli Elmlər Akademiyası Humanitar Elmlər Bölməsinin akademik-katibi, akademik Teymur Kərimli akademik Ömər Eldarova həyat yoldaşı

**ERNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Razim Məmmədov və Xətai Rayon İcra Hakimiyyəti başçısı aparatının kollektivi Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin əməkdaşları Kamil və Əbülfəs Atakişiyevlərə anaları

**ŞABİKƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Razim Məmmədov və Xətai Rayon İcra Hakimiyyəti başçısı aparatının kollektivi Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarova anası

**QÖNÇƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Mənəvi Dəyərlərin Təbliği Fondunun kollektivi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya anası

**SÜSƏN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Biznes Universitetinin rektorluğu və professor-müəllim heyəti Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya anası

**SÜSƏN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universiteti Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin professor-müəllim heyəti fakültənin Tətbiqi analizin riyazi üsulları kafedrasının müdiri, professor Laura Fətullayevaya atası

**FAİQ FƏTULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Kürdəmir Rayon Məhkəməsinin sədri Müseyib Bayramov və məhkəmənin kollektivi Bakı Şəhər Prokurorluğu İstintaqa nəzarət şöbəsinin rəisi Tariyel Qurbanova anası

**SÜSƏN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8398
Sifariş 3360